RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 37 (9492) 18 FEVRAL 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Münxen görüşləri İlham Əliyevin yüksək nüfuzunu bir daha təsdiqlədi




## Münxendə Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya Kansleri Olaf Şolts və Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşləri olub

**Fevralın 17-də Münxendə Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kansler Olaf Şolts ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli əlaqələrlə bağlı fikir mübadiləsi aparılıb. Almaniya tərəfi Ermənistanla Azərbaycan arasında sülh gündəliyinə öz dəstəyini göstərməyə və xoşməramlı əsasda Almaniyada bu istiqamətdə müvafiq görüşlərin keçirilməsinə dəstək verməyə hazır olduğunu bildirib. Olaf Şolts qeyd edib ki, COP29 əsnasında Ermənistanla Azərbaycan arasında əldə olunan kompromislər, COP29-un Azərbaycanda keçirilməsi sülh gündəliyinin də irəli aparılması üçün əlverişli imkanlar və şərait yaradır. Sonra Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kansler Olaf Şolts və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə birgə görüşü olub.

Görüşdə Almaniya Kansleri açılış nitqi ilə çıxış edib. O, Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini, eyni zamanda Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel tərəfindən aparılan missiyanı dəstəklədiyini vurğulayıb.

## Qarşı tərəfin müraciətinə əsasən...

### İlham Əliyevin Münxen görüşləri Azərbaycanın artan qlobal nüfuzundan xəbər verir

İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərdə iştirakı, yüksək tribunalardan çıxış etməsi, yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir.

Prezidentin Münxen Təhlükəsizlik Konfransında iştirakı, konfrans çərçivəsində bir çox dövlət liderinin xahişi ilə keçirilən görüşlər bir daha sübut edir ki, dünya ölkələri Azərbaycanla əməkdaşlığa yüksək dəyər verir, İlham Əliyevi sözünün sahibi, etibarlı tərəfdaş və ən önəmli lider hesab edirlər. Ümumiyyətlə, Münxen Təhlükəsizlik Konfransı dünya liderlərinin, aparıcı beynəlxalq təşkilatların, nüfuzlu tədqiqat, elm mərkəzlərinin rəhbərlərinin, tanınmış ekspertlərin toplaşdıqları ən mühüm platformalardan biridir. Azərbaycan müntəzəm şəkildə bu platformaya İlham Əliyevin şəxsində dəvət alır, dövlət başçısı müzakirələrdə fəal iştirak edir, qlobal və regional təhlükəsizlik məsələləri ilə öz dəyərli fikirlərini bölüşür.

Əgər diqqət etsək görərik ki, İlham Əliyev fevralın 16-17-də qarşı tərəflərin müraciətlərinə əsasən bir sıra mühüm görüşlər keçirib.

Görüşlər haqqında qarşı tərəfin müraciətləri və görüşlərin intensivliyi Azərbaycan Prezidentinin yüksək nüfuzunun, onun şəxsiyyətinə olan böyük hörmət və diqqətin göstəricisidir. Dövlət başçısının qrafikinə baxdıqda mövcud intensivliyi Azərbaycanla əməkdaşlıq etmək istəyənlərin sayının həddən artıq çox olması ilə bağlıdır.

→ 6

## İlham Əliyev Münxendə yeni reallıqları diktə edən qlobal lider kimi qarşılandı

Yaxın dövrə qədər Azərbaycana ittihamlar yağdırmaqla ehtiva edilən ritorikadan fərqli olaraq Münxendə cənab İlham Əliyevin daha çox yeni reallıqları diktə edən qlobal lider kimi qarşılandığı aydın formada görünür. Görüş təşəbbüskarları üçün dünyanın süni gündəminə çevrilməsinə çalışılan saxta mövzular ətrafında yox, daha çox cənab İlham Əliyevin əməkdaşlıq və regional təhlükəsizlik məsələlərində baxışları önəm daşıyır. İstər dövlət rəsmiləri, istərsə də qlobal iqtisadi güc subyektləri kimi tanınan özəl sektor nümayəndələri ilə görüşdə daha çox müstəqil, suveren Azərbaycanla iqtisadi əlaqələrini genişləndirməkdə maraq ifadə olunur. Əlbəttə, bu, Azərbaycan ətrafında Fransanın təhriki və rəhbərliyi ilə formalaşan süni çənbərin - Bakıya münasibətdə sanksiya təşəbbüslərinin fiaskosu deməkdir. Qlobal subyektlərin tədbirdə dövlət başçımızla iqtisadi-ticari, mədəni, humanitar əlaqələrin genişləndirilməsi barədə müzakirələrə cəhd etməsi, heç şübhəsiz ki, Azərbaycanın beynəlxalq hüququ rəhbər tutaraq özünün ərazi bütövlüyü və suveren haqlarını bərpa etməsində ehtiva olunan yeni status-kvonun sözsüz qəbullanması deməkdir. Bir sözlə, Münxen Təhlükəsizlik Konfransının ilk günü cənab İlham Əliyevin son bir il ərzində yaratdığı reallıqların bəyan edilməsi və qlobal subyektlər tərəfindən qəbullanması ilə xarakterizə olundu.

→ 6

## Yüksək ehtiramın təcəssümü

Ölkəmizin xarici siyasəti artıq regionun hüdudlarından kənara çıxıb. Azərbaycan dünyada orta güc hesab edilən ölkələr kateqoriyasına daxil olub. Buna xüsusən Vətən müharibəsində və ötən ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirlərində əldə etdiyimiz zəfərlər nəticəsində ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etməklə nail olmuşuq. Görünən odur ki, bu faktorlar dünya birliyinin etibarlı tərəfdaşı kimi öz mövqeyini möhkəmləndirən Azərbaycana olan etimadı daha da artırır.

→ 6

## Prezident Azərbaycanın milli strategiyasının yol xəritəsini təqdim etdi

Növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri də, təbii ki, ordumuzun daha da gücləndirilməsidir. Cənab Prezident bu məsələyə çox geniş toxundu və qeyd etdi ki, bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, silah-sursat, texnika alınır, yeni silahlı komando birləşmələri yaradılır. Prezident hərbi sənaye kompleksinin yaradılması barədə də danışdı. Dövlət başçısı qeyd etdi ki, öz ordumuzu böyük həcmdə silah-sursatla, texnika ilə təmin edəcəyik, həm də böyük həcmdə ixrac potensialımız olacaq. Beləliklə, xarici asılılığa son qoyulacaq.

→ 8

## Ermənistan terrorçuları birləşdirən "Yerkrapa"ya meydan verib

### Bununla da rəsmi İrəvan sülh prosesini əngəlləyir

Təxribatçılar cavablarını gərəkli şəkildə aldılar. Ermənistan ordusunun Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsinin yaxınlığındakı döyüş postu Azərbaycan Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən keçirilən "Qisas" əməliyyatı ilə tamamilə darmadağın edildi. Dövlət Sərhəd Xidmətinin məlumatında qeyd olundu: "Məhv edilmiş döyüş postunun şəxsi heyəti arasında ciddi itkilərin olması barədə məlumatlar mövcuddur. Ermənistan tərəfinin Azərbaycan-Ermənistan şərti dövlət sərhədində əməliyyat şəraitinin gərginləşdirilməsinə yönələn hər bir təxribatına bundan sonra da daha ciddi və qəti tədbirlərlə cavab veriləcəkdir. Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür". Ermənistan mənbələri 4 erməni hərbçisinin həlak olduğunu, bir neçəsinin ağır yaralandığını təsdiq etdilər. Məhv edilən təxribatçıların kimliyi də məlum oldu. Onlar "Yerkrapa" terror təşkilatının üzvləri - 1974-cü il təvəllüdlü Eduard Hamletoviç Arutyunyan, 1957-ci il təvəllüdlü Hraçya Talışeviç Ovannisyan, 1982-ci il təvəllüdlü Qaqik Varazdatoviç Manukyan və 1979-cu il təvəllüdlü Arsen Qagikoviç Ambartsumyandır. Təşkilatın başqa bir üzvü - 1988-ci il təvəllüdlü Rostam Baqişeviç Vardanyan isə yaralanıb. Onun vəziyyəti orta ağır qiymətləndirilir.

→ 9

## Prezident İlham Əliyevin qarşıya qoyduğu yeni hədəflər türk dünyasına böyük gələcək vəd edir

Xalqının mütləq əksəriyyətinin dəstəyini qazanan Prezident İlham Əliyevin tutduğu yolun doğru olduğunu mütləq dünyaya çox böyük şücaətlə nümayiş etdirdiyini vurğulayan Hulusi Kılıç deyib: "Mən bu qətiyyəti və iradəni ancaq İstanbulu fəth etmiş Fateh Sultan Mehmetin, 14 yaşında İmperiya qurmuş Şah İsmayıl Səfəvinin, Türkiyəni, necə deyərlər, küllərindən dirçəltmiş Mustafa Kamal Atatürkün və Azərbaycanı dağılmaqdan xilas edərək dövlət qurmuş Heydər Əliyevin göstərdikləri, şanlı Türk tarixinə yazılmış əzmkarlıq və qorxmazlıqları ilə müqayisə edə bilərəm".

→ 8

## Yeni mərhələnin hədəfləri Azərbaycanı daha da qüdrətləndirəcək

Bəyan olunduğu kimi, qarşıdakı dövr üzrə təhlükəsizlik, sabitlik və müdafiə qabiliyyətinin gücləndirilməsi, ordu quruculuğu və hərbi sənayenin inkişafı əsas milli hədəflər kimi davam etdiriləcək. Prezident tarixi çıxışında qeyd etdiyi kimi, "İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri ilə sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edirsə ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq".

→ 8

## Təməl möhkəm olanda

Möhtəşəm quruculuq işlərinin arxasında Azərbaycanın iqtisadi gücü və bundan yaranan maddi imkanları durur. Nitqində bu barədə danışan Prezident İlham Əliyev qeyd etmişdir ki, əgər 2003-cü ildə bizim ümumi daxili məhsulumuzun dəyəri 7 milyard dollar idisə, keçən ilin yekunlarına görə bu rəqəm 72 milyard dollar olmuşdur. Nəticədə valyuta ehtiyatlarımız 2003-cü ildəki 1,6 milyard dollardan 69,5 milyard dollara çatmışdır. Uğurlu iqtisadi siyasət həmçinin xarici borcumuzu 6,4 milyard dollaracan azaltmağa imkan vermişdir. Amma bunlar da hələ iqtisadi uğurlarımızın hamısı deyil. Məsələn, əgər 2003-cü ildə ölkə üzrə minimum əməkhaqqı indiki kursla 9 manat idisə, hazırda bu rəqəm 345 manatdır. Minimum pensiya isə 2003-cü ildəki 20 manatdan 280 manata çatmışdır. Orta aylıq pensiya (500 manatdan çox), orta əməkhaqqı (940 manatdan çox) da ötən illərlə müqayisədə xeyli artmışdır.

→ 8



## Azərbaycan Prezidenti İlham Əliyevin Münxenə səfəri

# Münxen görüşləri İlham Əliyevin yüksək nüfuzunu bir daha təsdiqlədi

## Dövlətimizin başçısı ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi ilə görüşüb



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerrinin görüşü olub.**



AZƏRTAC xəbər verir ki, Con Kerri dövlətimizin başçısını prezident seçkilərində qələbə və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, Prezident İlham Əliyev ilə görüşlərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP-la əlaqədar bir daha özünün iqlim dəyişikliyi sahəsində beynəlxalq səyləri dəstəkləmək əzmini nümayiş etdirib. Azərbaycan eyni zamanda milli səviyyədə bərpaolunan enerji və yaşıl keçid prosesi sahəsində ciddi tədbirlər həyata keçirməkdədir, bu istiqamətdə region səviyyəsində və qlobal miqyasda olan tədbirləri yaxından dəstəkləyir. İqlim maliyyələşdirilməsi COP29-un əsas mövzusu olacaq ki, Azərbaycan da bu xüsusda qlobal həmrəyliyə, xüsusilə də qlobal Şimal və qlobal Cənub arasında həmrəyliyə nail olmaq istiqamətində səylərini davam etdirəcək. Bu xüsusda Azərbaycanın Qoşulmama Hərəkatına dörd il sədrlik edən dövlət kimi çox yaxşı təcrübəsi var. Eyni zamanda Azərbaycan digər müxtəlif platformalarda fəal şəkildə iştirak edir ki, bundan da istifadə edərək qlobal həmrəyliyə nail olunmasına dəstək verəcəkdir. Dövlətimizin başçısı regional səviyyədə reallaşdırılan tədbirlər kontekstində Qara dənizin dibi ilə keçən layihəni qeyd etdi, həmçinin Xəzər dənizinin dibində bərpaolunan xəttin qurulması və bu xüsusda Mərkəzi Asiya dövlətləri ilə birgə işi diqqətə çatdırdı.

Con Kerri iqlim maliyyələşdirilməsi mövzusunun gündəlikdə duran əsas məsələlərdən biri olduğunu vurğuladı. O, hazırda yaşıl keçidlə əlaqədar texnoloji inkişafın çox sürətlə getdiyini və bu istiqamətdə yaxşı nəticələrin əldə olunduğunu, Bakıda da qəbul ediləcək qərarların iqlim dəyişikliyi prosesində beynəlxalq səylərə ciddi təkan verəcəyinə ümidvarlığını bildirdi.

Prezident İlham Əliyev Con Kerrini COP29-da iştirak etmək üçün Azərbaycana səfərə dəvət etdi.

Con Kerri COP29-da məmnuniyyətlə iştirak edəcəyini diqqətə çatdırdı.

## Münxendə Azərbaycan Prezidenti ilə İraq Kürdüstan Regionunun Başçısının görüşü olub

**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, İraq Kürdüstan Regionunun Başçısı Neçirvan Bərzaninin görüşü olub.**





AZƏRTAC xəbər verir ki, Neçirvan Bərzani dövlətimizin başçısına prezident seçilməsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, ondan da səmimi təbrik məktubu almasını məmnunluqla qeyd etdi.

İraq Kürdüstan Regionunun Başçısı Azərbaycana səfərini və dövlətimizin başçısı ilə keçirdiyi görüşləri məmnuniyyətlə xatırlatdı. Səfər zamanı müzakirə olunmuş məsələlərin həyata keçirilməsi istiqamətində hər iki tərəfin nümayəndələrinin yaxından çalışdıqları vurğulandı. Həmçinin İraqın mərkəzi hökuməti ilə Azərbaycan arasında əlaqələr məmnunluqla qeyd olundu.

Söhbət əsnasında İraqın müxtəlif şəhərləri ilə Azərbaycan arasında birbaşa uçuşların olmasının önəmi qeyd edildi. Regionla Azərbaycan arasında iqtisadi-ticari, mədəni-humanitar əlaqələrin inkişaf etdirilməsi istiqamətində məsələlər nəzərdən keçirildi.

Neçirvan Bərzani COP29-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdırdı.

Dövlətimizin başçısı İraq Kürdüstan Regionunun Başçısını COP29-da iştirak etmək üçün Azərbaycana səfərə dəvət etdi.

Söhbət zamanı iqlim dəyişikliyi istiqamətində də birgə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## Münxendə Azərbaycan Prezidenti İlham Əliyev ilə "Indra" şirkətinin prezidentinin görüşü olub



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, "Indra" şirkətinin prezidenti, idarə heyətinin sədri Mark Tomas Murtranın görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə ötən illər ərzində şirkət ilə Azərbaycan arasında qurulmuş əməkdaşlıqdan məmnunluq ifadə olundu, bu əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı. Söhbət zamanı bir sıra yeni layihələr barədə fikir mübadiləsi aparıldı və əməkdaşlığın davam etdirilməsinə qarşılıqlı maraq ifadə olundu.

## Azərbaycan Prezidenti İlham Əliyevin Münxendə Ermənistanın Baş naziri Nikol Paşinyan ilə ikitərəfli görüşü olub

**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə ikitərəfli görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqlar, münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası məsələləri müzakirə olunub. Xarici İşlər nazirliklərinə tezliklə sülh müqaviləsi ilə bağlı görüş və sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasının keçirilməsi barədə təlimat verilib.

İki ölkə arasında COP29 əsnasında olan qarşılıqlı kompromislər və əldə edilmiş irəliləyiş müsbət qiymətləndirilib.

## Münxendə Azərbaycan Prezidenti İlham Əliyev ilə Ukrayna Prezidentinin görüşü olub



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Ukrayna Prezidenti Volodimir Zelenskinin görüşü olub.**



AZƏRTAC xəbər verir ki, Prezident Volodimir Zelenski dövlətimizin başçısını seçkilərdə qələbə münasibətilə təbrik etdi, Azərbaycan Prezidentinə fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, Volodimir Zelenskidən təbrik məktubu aldığını da məmnuniyyətlə qeyd etdi.

Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələr müzakirə olundu.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımların yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Söhbət zamanı iki ölkə arasında iqtisadi-ticari, humanitar, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Münxenə səfəri

# Münxen görüşləri İlham Əliyevin yüksək nüfuzunu bir daha təsdiqlədi

## Münxendə Azərbaycan Prezidenti İlham Əliyev ilə ABŞ-nin Dövlət katibi Entoni Blinkenin görüşü olub

**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi Entoni Blinkenin görüşü olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını salamlayan **Entoni Blinken** dedi: Hər vaxtınız xeyir, cənab Prezident. Prezident Əliyevlə görüşmək imkanını çox yüksək qiymətləndirirəm. Son bir neçə ildə bizim görüşmək və söhbət etmək üçün bir çox imkanımız olub. Hesab edirəm ki, indiki zaman kəsiyi Azərbaycanın COP rəhbərliyini öz üzərinə götürməsi baxımından çox vacibdir. Biz bu məsələni ciddi dəstəkləyirik. Bu tədbirin uğurlu olması, eyni zamanda Azərbaycan və Ermənistan arasında davamlı və ləyaqətli sülhün təmini üçün əlimizdən gələni etmək arzusundayıq. ABŞ bu istiqamətdə faydalı işlər görmüşdür və görməyə davam edəcəkdir. Danışılacaq çoxlu mövzular var. Cənab Prezident, bu gün bizimlə görüşə vaxt ayırdığınıza görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev** dedi: Təşəkkür edirəm, cənab Dövlət katibi. Siz də qeyd etdiyiniz kimi, COP29 bizim ikitərəfli gündəliyimizin önəmli bir hissəsidir. Bu, gündəliyimizdə duran məsələlərin mövzularını genişləndirir və biz cari ildə bütün təşəbbüslərimizlə bağlı hökumətinizin dəstəyinə ümid edirik. Cənab Dövlət katibi qeyd etdiyi kimi, gündəliyimizdə daha bir məsələ var və bu da Qafqazda regional vəziyyətdir, xüsusilə Ermənistan və Azərbaycan arasında sülhün əldə olunmasının perspektivləridir. Azərbaycan sülh prosesinə sadiqdir və sülh sazişinin ən qısa zamanda bağlanması bizim milli maraqlarımıza cavab verir. Mən Amerika Birləşmiş Ştatlarına və xüsusilə cənab Dövlət katibinə bu istiqamətdə göstərdiyi səylərinə görə təşəkkür edirəm.



❖ ❖ ❖

Görüşdə Azərbaycanla ikitərəfli əlaqələri çox yüksək qiymətləndirdiklərini qeyd edən Antoni Blinken ikitərəfli münasibətlərin və ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.

Azərbaycanın ABŞ ilə ikitərəfli gündəliyi çox yüksək qiymətləndirdiyini deyən dövlətimizin başçısı İlham Əliyev öz növbəsində vurğuladı ki, ölkələrimiz arasında tərəfdaşlığın genişləndirilməsi üçün əlverişli imkanlar var.

ABŞ Dövlət katibi COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, COP çərçivəsində ABŞ-nin də Azərbaycanla əməkdaşlığa və ölkəmizi bu istiqamətdə dəstəkləməyə hazır olduğunu dedi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev vurğuladı ki, COP29 Azərbaycanla ABŞ arasında əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə birgə işin aparılması üçün çox yaxşı imkanlar yaradır.

Dövlətimizin başçısı ölkəmizin Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh gündəliyini dəstəklədiyini vurğuladı, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistanın Baş naziri ilə keçirilmiş ikitərəfli görüşü qeyd etdi və sülh müqaviləsinə dair danışıqların, sərhədlərin delimitasiyası üzrə görüşlərin keçirilməsi ilə bağlı razılaşmaların əldə olunmasını müsbət addım kimi qiymətləndirdi.

Artıq regionda de-fakto sülhün olduğunu bildirən Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan-ABŞ ikitərəfli əlaqələri Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması prosesindən kənar şəkildə özlüyündə inkişaf etdirilməlidir.

Söhbət zamanı regional bağlantılar, nəqliyyat, Orta dəhliz və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

## Münxendə Prezident İlham Əliyev ilə Avropa Komissiyasının İcraçı vitse-prezidentinin görüşü olub



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Avropa Komissiyasının Avropa Yaşıl Saziş Təşəbbüsü, təsisatlararası əlaqələr və planlaşdırma üzrə İcraçı vitse-prezidenti Maroş Şevçoviçin görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Maroş Şevçoviç Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etməsinin məmnunluq doğurduğunu vurğuladı. O, Azərbaycanın pan-Avropa enerji təchizatçısı olduğunu yüksək qiymətləndirdi. Tezliklə ölkəmizə səfər etmək niyyətində olduğunu bildirən Maroş Şevçoviç COP29-un Azərbaycan ilə Avropa İttifaqı arasında bərpaolunan enerji və iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını diqqətə çatdırdı.

O, Azərbaycanın evsahibliyi edəcəyi COP29-un sessiyasının əsas gündəliyinin çox vacib mövzulardan birinin iqlim maliyyələşdirilməsi olacağını deyərək, Avropa İttifaqının da iqlim dəyişikliyi üzrə proseslərdə yaxından iştirak edən tərəfdaş kimi Azərbaycana dəstək göstərməyə hazır olduğunu vurğuladı.



Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan COP29-da qlobal Şimal və qlobal Cənub arasında həmrəyliyə nail olmaq istiqamətində səylərini əsirgəməyəcək. Belə ki, Azərbaycanın Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında və digər üzv təşkilatlarda apardığı iş, Avropa İttifaqı ilə əlaqələri və digər tərəfdaşlarla münasibətləri bu cür həmrəyliyin əldə edilməsinə töhfə verə bilər. Dövlətimizin başçısı həmçinin COP çərçivəsində ilk dəfə olaraq Üçlük mexanizminin yaradıldığını qeyd etdi və Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliyanın bir araya gələrək bu istiqamətdə birgə iş aparacağını vurğuladı.

## Azərbaycan Prezidenti Münxendə Banqladeşin Baş naziri ilə görüşüb



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Banqladeş Xalq Respublikasının Baş naziri xanım Şeyx Hasinanın görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Qoşulmama Hərəkatının Zirvə görüşü çərçivəsində ölkəmizə səfərini və Azərbaycan Prezidenti ilə görüşlərini məmnunluqla xatırladan Şeyx Hasina dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Banqladeşin Baş naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı və ölkəsinin də qlobal iqlim dəyişikliyindən əziyyət çəkdiyini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın COP29 çərçivəsində inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında həmrəyliyin gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı. Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin İslam Əməkdaşlıq Təşkilatı, eyni zamanda Avropa təsisatları ilə əlaqələrinin bu istiqamətdə həmrəyliyin gücləndirilməsi işinə töhfə verəcəyini diqqətə çatdırdı.



Azərbaycan Prezidenti COP29-da iştirak etmək üçün Banqladeşin Baş nazirini ölkəmizə səfərə dəvət etdi. Şeyx Hasina dəvəti məmnuniyyətlə qəbul etdi.

Görüşdə Banqladeşlə Azərbaycan arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, əczaçılıq, kənd təsərrüfatı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi, əlaqələrin genişləndirilməsi üçün böyük perspektivlərin olduğu diqqətə çatdırıldı. Eyni zamanda Azərbaycan-Banqladeş iqtisadi əməkdaşlıq üzrə işçi qrupunun yaradılmasının və iki ölkənin biznes dairələri arasında əlaqələrin qurulmasının vacibliyi vurğulandı.

Ölkələrimizin xarici işlər nazirləri və aidiyyəti dövlət qurumları arasında əlaqələrin gücləndirilməsi və siyasi məsləhətləşmələr mexanizminin yaradılması məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

**Azərbaycan Prezidenti İlham Əliyevin Münxenə səfəri**

# Münxen görüşləri İlham Əliyevin yüksək nüfuzunu bir daha təsdiqlədi

## Münxendə Azərbaycan Prezidenti İlham Əliyev ilə BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar nazirinin görüşü olub





**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Sultan Əhməd Əl-Cabir Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarını və ən xoş arzularını, həmçinin prezident seçkilərində qələbəsi münasibətilə İlham Əliyevə, Azərbaycan dövlətinə və xalqına səmimi təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirdi, onun da salamlarını BƏƏ Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev bu yaxınlarda Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanla telefon danışığını və onun Azərbaycana səfərini məmnunluqla xatırladı. Qeyd etdi ki, bu, tarixi səfər idi. Belə ki, BƏƏ Prezidenti ilk dəfə Azərbaycana rəsmi səfər edirdi.

COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı Azərbaycanı təbrik edən nazir Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın tapşırığına əsasən, BƏƏ-nin COP heyətinin hazırda Azərbaycan nümayəndə heyəti ilə yaxından işlədiyini diqqətə çatdırdı. O, COP29-un COP-un tarixində ən uğurlu sessiyalardan biri olacağına əminliyini ifadə etdi.

Azərbaycan Prezidenti COP çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizə göstərdiyi dəstəyin və aparılan təcrübə mübadiləsinin çox əhəmiyyətli olduğunu bildirdi. Dövlətimizin başçısı BƏƏ, Azərbaycan və Braziliya arasında COP çərçivəsində yaradılan Üçlük mexanizminin çox uğurlu addım olduğunu diqqətə çatdırdı.

Görüşdə Azərbaycanla BƏƏ arasında müxtəlif sahələrdə, o cümlədən ölkəmizdə bərpaolunan enerji sahəsində əməkdaşlıq xüsusi vurğulandı. "Masdar" şirkətinin Azərbaycandakı uğurlu fəaliyyəti və ölkəmizin qeyri-neft sənayesinə yatırdığı investisiyalar məmnunluqla qeyd edildi, bu sahədə əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Münxendə "The Rockefeller Foundation"ın baş vitse-prezidenti ilə görüşü olub



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, "The Rockefeller Foundation"ın strateji kommunikasiyalar, siyasət və təbliğat üzrə baş vitse-prezidenti xanım Eylin Okonnorun görüşü olub.**

AZƏRTAC xəbər verir ki, COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdıran Eylin Okonnor "The Rockefeller Foundation"ın dünyada iqlim dəyişikliyi və onun qarşısının alınmasının maliyyələşdirilməsi sahəsində aktiv fəaliyyət göstərdiyini, bu istiqamətdə bir sıra dövlətlərlə, özəl sektorla və vətəndaş cəmiyyəti ilə çalışdığını qeyd etdi. O, bu xüsusda Azərbaycanla əməkdaşlığa hazır olduqlarını bildirdi.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı qeyd etdi ki, COP29-la əlaqədar inklüzivliyin tərəfdarıdır və Azərbaycan bu istiqamətdə beynəlxalq ictimaiyyətlə yaxından işləyir.

Ölkəmizin "The Rockefeller Foundation"la da əməkdaşlığa hazır olduğunu vurğulayan Prezident İlham Əliyev fondun nümayəndə heyətini Azərbaycana səfərə dəvət etdi.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əziz və hörmətli Prezident.

Zəfər seçkilərində əldə etdiyiniz qələbə münasibətilə Azərbaycan-Yaponiya Dostluq Mərkəzi və Yaponiyada yaşayan Azərbaycan icması adından Sizə səmimi təbriklərimizi çatdırıram. Tam şəffaf və demokratik şəraitdə keçirilən seçkilərdə parlaq qələbəniz Azərbaycan xalqının Sizə sonsuz etimadını və dəstəyini bir daha təsdiq etdi.

Siz Müzəffər Ali Baş Komandan və Qarabağın fatehi kimi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiniz, doğma Vətənimiz üçün yeni inkişaf və firavanlıq mərhələsinin başlanğıcını qoydunuz.

Sizin qətiyyətli rəhbərliyinizlə Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi inkişaf dövrünü yaşayır. Ölkəmizin beynəlxalq mövqeyi daha da güclənmiş, nüfuzu artmışdır. Xalqımız Sizin ətrafınızda sıx birləşmişdir.

Tam əminik ki, Siz yeni prezidentlik dönəmində Azərbaycanı daha da inkişaf etdirəcək, ölkəyə yeni zəfərlər qazandıracaqsınız və biz respublikada daha sürətli inkişaf proseslərinin şahidi olacağıq.

Cənab Prezident, Sizə cansağlığı, gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Ən xoş arzularla,*

***Xəlil KƏLƏNTƏR,***
***Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin sədri***
*Yaponiya, Tokio şəhəri*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Kanadanın Toronto Şəhər Təhsil Mərkəzinin xarici dillər bölməsinin Azərbaycan dili sinfinin müəllim kollektivi adından və şəxsən öz adımdan Sizi növbədənkənar prezident seçkilərində qazandığınız qələbə münasibətilə ürəkdən təbrik edirəm.

Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycanın Vətən müharibəsindəki şanlı Qələbəsi müasir tariximizə qızıl hərflərlə yazıldı. Otuz ildən sonra işğaldan azad olunmuş ata-baba torpaqlarımızda bu gün yenidənqurma işləri sürətlə davam etdirilir.

Ölkəmizin əmin-amanlığı, xalqımızın firavanlığı naminə görəcəyiniz işlərdə Sizə uğurlar arzulayıram. İnanıram ki, qalib ölkənin qalib vətəndaşlarının rifahı Sizin düşünülmüş qərarlarınız nəticəsində gündən-günə yüksələcək. Torpaqlarımıza bir daha düşmən ayağı dəyməyəcək. Çünki Sizin kimi Ali Baş Komandanın "dəmir yumruğ"u hər zaman düşmənə öz yerini göstərməyə qadirdir.

Biz qalib xalqın xaricdə yaşayan qalib nümayəndələri kimi Müzəffər Liderimizlə fəxr edirik. Sizin rəhbərliyinizlə Vətənimizin daha böyük nailiyyətlər əldə edəcəyinə əminik.

*Hörmətlə,*

***Yeganə CƏFƏROVA,***
***Toronto Şəhər Təhsil Mərkəzinin xarici dillər bölməsinin Azərbaycan dili sinfinin rəhbəri və baş müəllimi***
*Kanada, Toronto*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Böyük Azərbaycan xalqı bu dəfə də Vətənimiz üçün doğru seçim etdi. Bir dövlətin inkişaf etməsi, digər dövlətlər arasında söz sahibi olması üçün ona əzmkar, ağıllı xalq və güclü lider lazımdır. Azərbaycan xalqının xoşbəxtliyi də məhz bundadır ki, müstəqilliyini bərpa etdikdən sonra çox güclü, hətta deyə bilərik ki, dünyanın ən güclü liderləri sırasında olan iki şəxsiyyətin - Ümummilli Lider Heydər Əliyevin və Sizin rəhbərliyinizlə böyük inkişaf yolu keçdi.

Siz Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirərək Azərbaycan dövlətini hazırkı inkişaf səviyyəsinə yüksəltdiniz, xalqımıza böyük nailiyyətlər qazandırdınız. Otuz il işğal altında qalan torpaqlarımız məhz Sizin rəhbərliyinizlə geri qaytarıldı. Sizin dərin zəkanız, biliyiniz, zəngin təcrübəniz, qətiyyətiniz, ordumuzun rəşadəti, xalqın liderinə olan inamı sayəsində Azərbaycan haqq mübarizəsini uğurla başa vurdu, gücünü bütün dünyaya göstərdi. Bizə bu Qələbəni, qüruru və xoşbəxtliyi yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, Sizi seçkilərdəki inamlı qələbəniz münasibətilə Münxen Azərbaycanlıları Mədəniyyət Mərkəzi olaraq ürəkdən təbrik edir, bu çətin və şərəfli vəzifənizdə Sizə müvəffəqiyyətlər arzulayırıq. Uğurlu fəaliyyətinizlə Azərbaycana bundan sonra da yeni-yeni zəfərlər qazandıracağınıza inanırıq.

Hər zaman Sizin arxanızdayıq, yürütdüyünüz siyasəti dəstəkləyirik.

*Hörmətlə,*

***Münxen Azərbaycanlıları Mədəniyyət Mərkəzi***

## Özbəkistanın Baş naziri Azərbaycanın Baş naziri Əli Əsədovu təbrik edib

Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova təbrik məktubu ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, A.Aripov həmkarını Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Məktubda Azərbaycan-Özbəkistan dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi məqsədilə dövlət başçıları tərəfindən iki ölkənin hökumətlərinin qarşısında qoyulmuş mühüm vəzifələrin həyata keçirilməsində sıx əməkdaşlığa ümid ifadə olunur.

A.Aripov həmçinin nəqliyyat-logistika, energetika, sənaye, kənd təsərrüfatı, mədəni-humanitar və digər sahələrdə əldə olunmuş razılaşmaların ardıcıl surətdə həyata keçiriləcəyinə əminliyini ifadə edib.

## Gürcüstanın Baş naziri İrakli Kobaxidze Əli Əsədova təbrik məktubu ünvanlayıb

Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova təbrik məktubu ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubda İ.Kobaxidze Ə.Əsədovu Azərbaycan Respublikasının Baş naziri təyin olunması münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan-Gürcüstan əməkdaşlığı və qarşılıqlı dəstəyi iki ölkənin strateji tərəfdaşlığının, sıx mehriban qonşuluq əlaqələrinin bariz ifadəsi kimi qiymətləndirilib, münasibətlərin gələcəkdə daha da intensiv və əhatəli olacağına əminlik ifadə olunub.

Gürcüstanın Baş naziri iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində birgə səy göstərməyə hazır olduğunu bildirib.

## Ceyhun Bayramov Münxendə ABŞ Dövlət katibinin köməkçisini Ermənistanın təxribatları barədə məlumatlandırıb

Fevralın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Münxen Təhlükəsizlik Konfransı çərçivəsində qarşı tərəfin müraciəti əsasında ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli gündəlikdə duran məsələlər, habelə Azərbaycan və Ermənistan arasında ikitərəfli əsasda normallaşma prosesinin perspektivləri müzakirə olunub. Nazir Ceyhun Bayramov 5 ay sabitlik hökm sürəndən sonra heç bir təhrikedici amil olmadan snayper atəşi nəticəsində Azərbaycan hərbi qulluqçusunun yaralanması ilə nəticələnən Ermənistan təxribatının sülh prosesinə zərbə vurmaq məqsədi daşıdığını diqqətə çatdırıb.



Bununla yanaşı, Avropa İttifaqının Ermənistandakı missiyasının regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə təbliğat vasitəsi kimi geniş şəkildə sui-istifadə olunmasının, onların apardığı "binokl diplomatiyasının" qəbuledilməzliyi diqqətə çatdırılıb.

Sülh sazişi layihəsinə gəldikdə, Ermənistanın Konstitusiyasında, qanunvericilik aktlarında, beynəlxalq təşkilat və məhkəmələrdə ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialar bir daha xatırlanıb və bu iddialardan əl çəkməyin vacibliyi vurğulanıb.

Görüşdə habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Muxtar Babayev Almaniya XİN-in nümayəndəsi ilə iqlim sahəsində birgə fəaliyyəti müzakirə edib

Münxen Təhlükəsizlik Konfransında (MSC2024) iştirak edən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev iqlim dəyişikliyi siyasətində ixtisaslaşmış amerikalı alman ekofəal, Almaniyada Xarici İşlər Nazirliyinin beynəlxalq iqlim siyasəti üzrə xüsusi nümayəndəsi Cenifer Morqanla görüşüb.

AZƏRTAC xəbər verir ki, bu barədə COP29-un rəsmi "X" hesabında məlumat verilib. Paylaşımda qeyd olunur ki, görüş zamanı tərəflər hər kəs üçün səmərəli bir gələcək qurmaq naminə iqlim fəaliyyətini genişləndirmək və birlikdə çalışmağın vacibliyini müzakirə ediblər.

## Professor Moatazz Muhi ƏBDÜLHƏMİD:

# "Prezident İlham Əliyevin balanslaşdırılmış xarici siyasəti Azərbaycana nüfuz qazandırıb"



İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, İraq Strateji Araşdırmalar Cəmiyyətinin sədri, professor Moatazz Muhi Əbdülhəmidin "alnahar", "sharafpress", "nayrouz", "drabeen", "wrkaanews", "alhadathcente", "jedar.news", "samabaghdad" saytlarında "Prezident Əliyevin böyük qələbəsi" sərlövhəli analitik məqaləsi dərc olunub.



AZƏRTAC xəbər verir ki, məqalədə fevralın 7-də Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri təhlil edilib. Diqqətə çatdırılıb ki, proses rəvan və şəffaf şəkildə keçdiyi üçün səsvermə hüququ olan milyonlarla Azərbaycan vətəndaşı səs vermək üçün seçki məntəqələrinə axışıb. Prezident İlham Əliyev 90 faizdən çox səs toplayaraq böyük qələbə qazanıb. Seçkilər Azərbaycan Ordusunun bir müddət əvvəl ildırım sürəti ilə geri qaytardığı Qarabağ iqtisadi zonası da daxil olmaqla, ölkənin bütün ərazisini əhatə edib.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov keçirdiyi mətbuat konfransında Azərbaycan xalqının İlham Əliyevi ölkə prezidenti seçdiyini açıqlayıb.

Şübhə yoxdur ki, 2003-cü ildən Azərbaycan Respublikasına rəhbərlik edən Prezident İlham Əliyev demokratik transformasiyaya əsaslanan yeni qaydaların yaradılmasına çalışır.

Görünən odur ki, seçicilər Prezident İlham Əliyevin Qarabağın bütün ərazisinin işğaldan azad edilməsi və ölkə suverenliyinin bərpası ilə bağlı möhtəşəm hərbi uğurunu xüsusi dəyərləndiriblər. İlham Əliyev inkişaf etmiş dövlətlərlə strateji tərəfdaşlıq əlaqələri qurmaqla yanaşı, böyük qonşuları ilə əməkdaşlığı mümkün qədər yüksək səviyyədə saxlamağa, Azərbaycanın ətrafındakı təhlükələri azaltmağa çalışır.

Həqiqət budur ki, Prezident İlham Əliyevin balanslaşdırılmış xarici siyasəti Azərbaycana nüfuz qazandırıb ki, bu da ölkəni iqtisadi tərəqqiyə və hərtərəfli inkişafa aparan yoldur.

Professor yazıb ki, Azərbaycan bundan sonra da böyük dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlığını davam etdirəcək. Bu mənada Azərbaycan ərəb dünyası, eləcə də İraq ilə əlaqələrini daha da inkişaf etdirəcək, xalqlar arasında mədəni və tarixi yaxınlaşmaya əsaslanan yeni münasibətlər sistemi formalaşacaq.

Prezident İlham Əliyev müasir dövrdə ikili standartlar siyasəti ilə barışmayacağını bildirib, Ermənistanla yeni müharibənin mümkünlüyünü istisna edib, Fransanı Azərbaycanı təzyiq altında saxlamaq üçün İrəvanı təlim və silahlandırmaqda ittiham edib.

2023-cü ilin sentyabrında bir neçə saat davam edən antiterror tədbirlərindən sonra Azərbaycan Ordusu Qarabağda fəaliyyət göstərən qanunsuz silahlı dəstələri məğlub edərək suverenliyinin bərpasına nail oldu. Sülh sazişinin imzalanması üçün şəraitin yarandığını bildirən Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında zəmanətçiyə ehtiyac olmadığını söyləyib.

Materialda vurğulanıb ki, Prezident İlham Əliyevin şəxsiyyəti, onun siyasətinin aspektləri öyrənilməyə və tədqiqə layiqdir. O, iyirmi il ərzində kifayət qədər kasıb bir ölkəni təkcə Qafqazda deyil, Qərbi və Orta Asiyanın əsas oyunçularından birinə çevirə bildi. Bu, daha çox onunla bağlıdır ki, Heydər Əliyevin siyasətini uğurla davam etdirən İlham Əliyev danışıqlar aparmağı və özünəməxsus beynəlxalq əlaqələr qurmağı çox yaxşı bacarır. İlham Əliyev Azərbaycanın sərfəli coğrafi mövqeyindən yararlanaraq, xalqın dəstəyini səfərbər edə bilir. O, Azərbaycanı Ərəbistan, Rusiya, Türkiyə və Çin arasında kəsişmə nöqtəsinə çevirib. Azərbaycanın təhlükəsizliyini təmin etmək üçün onun kifayət qədər gücü və qüdrəti var. Andiçmə mərasimində vurğuladığı kimi, "Orada (Xankəndidə - red.) verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi".

## Beynəlxalq ekspert: "Azərbaycan qlobal iqlim dəyişikliyinin təsirini azaltmaq üçün mühüm praktiki addımlar atır"

Bu ilin noyabr ayında Azərbaycanda dünyanın ən irimiqyaslı tədbirlərindən biri hesab olunan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 keçiriləcək. İki həftə davam edəcək tədbir zamanı Bakı dünyanın mərkəzinə çevriləcək və 70-80 minə yaxın xarici qonağı qəbul edəcək. Tədbirin ölkəmizdə keçirilməsi barədə yekdil qərar ötən il dekabrın 11-də Dubayda keçirilən COP28-in plenar iclasında qəbul edilib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi ilə bağlı AZƏRTAC-ın suallarını pakistanlı ekspert, Avrasiya Əsri İnstitutunun direktoru İrfan Şahzad Təkalvi cavablandırıb.

*- Azərbaycanın COP29 tədbirinə hazırlığı və bu tədbirin uğurla həyata keçirilməsi üçün səylərini necə dəyərləndirirsiniz?*

- Azərbaycan COP29-a evsahibliyi etmək hüququnu əldə etməkdə dünya ölkələri arasında layiqli yer tutdu. Son illər Azərbaycan bir sıra çoxtərəfli beynəlxalq tədbirləri uğurla təşkil edib ki, bu da ölkənin təşkilati aparatının yüksək səviyyədə olduğunu göstərir. Azərbaycanın əsas faydalı qazıntı istehsalçısı və ixracatçısı olmasına baxmayaraq, ölkə qlobal iqlim dəyişikliyinin dünyaya təsirini azaltmaq üçün mühüm praktiki addımlar atır. Təəccüblü deyil ki, Azərbaycana evsahibliyi hüququnun verilməsi beynəlxalq ictimaiyyətin konsensus əsasında qəbul edilmiş qərarıdır. Bakının bu tədbirin təşkilində göstərdiyi səylərə nəzər salsaq, əminliklə deyə bilərik ki, bu, fenomenal uğur olacaq.

*- Azərbaycanda keçiriləcək COP29 iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların müəyyənləşdirilməsində mühüm rol oynayacaq. Sizcə, əsas mövzular nələr olacaq və konfransın gündəliyinə hansı mövzular daxil edilməlidir?*

- İqlim dəyişikliyi ilə bağlı cari müzakirələr ilk növbədə iqlim fəaliyyəti - emissiyaların azaldılması və təmiz enerjiyə keçid ənənəsi kimi məsələləri əhatə edir. İqlim maliyyəsi də gündəmdədir. Kimin hansı funksiyanı yerinə yetirdiyi haqda məlumat gündəmdə qalır. İqlim dəyişikliyi ilə bağlı danışıqların gündəliyində çatışmayan məqama məsuliyyətlərin müəyyən edilməsi və yüklərin bölüşdürülməsi də daxildir. Ümid edək ki, Azərbaycanda keçirilən COP29 bir tərəfdən, tənqidi müzakirələri davam etdirəcək, digər tərəfdən isə, çatışmayan cəhətləri gündəmə gətirəcək. Sadə dillə desək, debat təkcə qlobal şimalda inkişaf etmiş ölkələrlə üstünlük təşkil etməməli, o, həm də inkişaf etməkdə olan qlobal cənubun həqiqi çağırışlarını və perspektivlərini əhatə etməlidir.



*- Azərbaycan qlobal yaşıl gündəliyin həyata keçirilməsinə hansı töhfəni verə bilər və bu baxımdan Azərbaycanda "yaşıl enerji"nin inkişafı istiqamətində həyata keçirilən tədbirləri necə qiymətləndirirsiniz?*

- Təkcə öz istehlakı üçün deyil, həm də gələcək onilliklərə yönəlmiş ixrac üçün kifayət qədər qalıq yanacaq ehtiyatlarına malik olan bir ölkə üçün təmiz enerjiyə qlobal keçid istiqamətində atılan addımlar təqdirəlayiqdir. Azərbaycan qazı təkcə bu qlobal dəyişikliyə töhfə verməyəcək, həm də Bakının müxtəlif regionlarının və əhalinin buna olan hazırlıq dərəcəsi xüsusi olaraq bölgə, həm də ümumilikdə dünya üçün böyük əhəmiyyət kəsb edir. Şəxsən mən hesab edirəm ki, Bakı iqlim dəyişikliyi sahəsində gələcək planlarını nümayiş etdirməkdən çəkinməməlidir. Ölkədə bərpaolunan enerji mənbələrinin kifayət qədər ehtiyatı var və bunu göstərmək lazımdır.

*- Ölkəmizin iqlim gündəliyinə və dekarbonizasiya planlarına sadiqliyini necə qiymətləndirirsiniz?*

- Əgər Bakı indiki trayektoriyası ilə davam etsə, o zaman Azərbaycanın uğuru inkişaf etməkdə olan dünya üçün qələbə olacaq. Səylər yalnız siyasət yanaşmasında ardıcıllıq elementi olduqda öz bəhrəsini verir və ümid edirik ki, Bakı bunu təmin edəcək.

*- Cənubi Qafqazın dünya iqtisadiyyatına inteqrasiyasında Azərbaycan hansı rola malikdir?*

- Azərbaycanın ÜDM-i Cənubi Qafqazın ümumi ÜDM-nin təxminən 60 faizini təşkil edir. Beləliklə, Azərbaycan iqtisadiyyatının daha geniş regionun iqtisadiyyatı və dünya iqtisadiyyatı ilə getdikcə daha çox qarşılıqlı əlaqədə olması və inteqrasiya etməsi o deməkdir ki, ölkəniz dünya iqtisadiyyatının daha inteqrasiya olunmuş hissəsinə çevrilir. Bu proses davam edəcək. Region ölkələri Azərbaycanla, xüsusilə iqtisadiyyat və ticarət sahəsində əməkdaşlıq etməlidirlər. Biz qarşılıqlı asılılıq dövründə yaşayırıq; heç bir ölkə ətrafda baş verənlərə məhəl qoymadan kənarda və ya təcrid olunmuş vəziyyətdə yaşaya bilməz.

## Prezident İlham Əliyev Milli Məclisə təqdimat verib

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Fikrət Fərrux oğlu Məmmədovun Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin edilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat vermişdir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq, təqdimata parlamentdə müvafiq qaydada baxılacaqdır.

***"Azərbaycan"***

## Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mədəniyyət naziri Adil Kərimli fevralın 17-də Salyanda vətəndaşları qəbul edib. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Salyan rayonunun Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Salyan, Hacıqabul, Biləsuvar, Neftçala rayonları və Şirvan şəhərindən sakinlər iştirak ediblər.

Vətəndaşların müraciətləri əsasən işlə təminat, fəxri adla təltif edilmə, mədəniyyət sahəsi ilə bağlı təklif və mövcud problemlərdən ibarət olub.

Nazirliyin məsul əməkdaşlarının da iştirak etdiyi qəbulda hər bir vətəndaşın müraciətinə həssaslıqla yanaşılması, diqqətlə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı müvafiq tapşırıqlar verilib. Qaldırılan məsələlərə vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq xüsusi nəzarətə götürülüb.

## QMİ sədri KAICIID Direktorlar Şurasının növbəti tədbirində iştirak edəcək

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə fevralın 19-da Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərinə səfərə yola düşür.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfərdə məqsəd "Sülh quruculuğu və müxtəliflik üçün mediada körpülərin qurulması və strateji tərəfdaşlıq" mövzusunda yüksəksəviyyəli panel müzakirədə iştirak etməkdir.

Media Siyasəti Forumu Layihəsinin mühüm tərkib hissəsi olan bu tədbir fevralın 19-21-də Ər-Riyadda KAICIID Beynəlxalq Dialoq Mərkəzinin təşkilatçılığı və Səudiyyə Media Forumu ilə əməkdaşlıq çərçivəsində keçiriləcək.

KAICIID Beynəlxalq Dialoq Mərkəzinin Direktorlar Şurasının üzvü olan Şeyxülislam Allahşükür Paşazadə tədbirin dinlərarası və mədəniyyətlərarası dialoqu və anlaşmanı fəal şəkildə təşviq edən, nifrət nitqinin qarşısını alan təşəbbüslərdə liderlik məqsədi daşıyan panel müzakirəsinin açılışında çıxış edəcək. Yüksəksəviyyəli panel müzakirədə media nümayəndələri, siyasətçilər və dini liderlər arasında sülh quruculuğunda, media məkanında müxtəlifliyin təşviqində strateji tərəfdaşlıq əlaqələrinin əhəmiyyəti vurğulanacaq.

## Qərbi Azərbaycan İcmasında təşkilatın mərkəzi orqanlarının rəhbərlərinin iclası keçirilib

Fevralın 17-də Qərbi Azərbaycan İcmasında təşkilatın mərkəzi orqanlarının rəhbərlərinin iclası keçirilib.

İcmadan AZƏRTAC-a bildiriblər ki, tədbiri giriş sözü ilə açan Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Prezident İlham Əliyevin 7 fevral seçkilərində Azərbaycan xalqının böyük etimadını qazanaraq qalib gəlməsini və andiçmə mərasimində söylədiyi fikirləri xüsusi vurğulayıb, onları ölkəmizin gələcək inkişafı istiqamətində vacib addımlar olacağını qeyd edib.

Əziz Ələkbərli icmanın 2024-cü ildə də soydaşlarımızın öz doğma torpaqlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdışı istiqamətində apardığı yorulmaz fəaliyyəti davam etdirəcəyini, bu məqsədlə ölkə daxilində və xaricində bir sıra tədbirlərin planlaşdırıldığını diqqətə çatdırıb.

Sonra icmanın İdarə Heyətinin sədri Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin və Aparatının 2024-cü ilin cari dövrü ərzində gördüyü işlər barədə məlumat verib və bu ilin növbəti aylarında görüləcək işlərin plan layihəsi ilə bağlı fikirlərini açıqlayıb.

Daha sonra Qərbi Azərbaycan İcması Müşahidə Şurasının sədri, professor Misir Mərdanov, Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, professor Əhliman Əmiraslanov, Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid Novruzov, Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı, Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Ramil Həsən, Ziyalılar Şurasının sədri, professor Elxan Hüseynov, Ziyalılar Şurası sədrinin müavini, Milli Məclisin deputatı Nizami Cəfərov, Gənclər Şurasının sədri, Milli Məclisin deputatı Ramin Məmmədov, Qəyyumlar Şurasının sədri Mürvət Həsənov, Nəzarət - Təftiş Komissiyasının sədr müavini, Milli Məclisin deputatı Şahin İsmayılov, Qadınlar Şurası sədrinin müavini, Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı, Qadınlar Şurası sədrinin müavini, filologiya üzrə elmlər doktoru Almaz Binnətova və digər şəxslər çıxış edərək Tədbirlər Planında əks olunanlarla bağlı təkliflərini səsləndirib, cari məsələlər ətrafında müzakirələr aparıblar.

## Azərbaycan Ordusunun Baş Qərargah rəisi Qarabağ bölgəsindəki bir neçə hərbi hissədə olub

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, Quru Qoşunların komandanı general-leytenant Hikmət Mirzəyev və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə dislokasiya olunmuş bir neçə hərbi hissədə olublar.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Quru Qoşunların rəhbər heyəti, briqada komandirləri, onların müavinləri və əlahiddə hərbi hissələrin komandirləri ilə görüşən Baş Qərargah rəisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuz qarşısında qoyduğu tapşırıqları komandir-rəis heyətinə çatdırıb, onların icrası ilə əlaqədar müvafiq göstərişlər verib. Baş Qərargah rəisi səfərbərlik hazırlığı üzrə təlim toplanışına cəlb olunmuş hərbi vəzifəlilərin təminatı və keçirilən praktiki məşqlər ilə maraqlanıb, döyüş və atəş hazırlığını izləyib, onların təkmilləşdirilməsinə dair göstərişlər verib. Bildirilib ki, təlim toplanışına cəlb olunmuş hərbi vəzifəlilərin əksəriyyəti Vətən müharibəsi və ondan sonra keçirilmiş əməliyyatlarda iştirak etmiş ehtiyatda olan hərbi qulluqçulardır.

Baş Qərargah rəisi səfərbərlik hazırlığı və səfərbərlik ehtiyatlarının yaradılması üzrə keçirilən tədbirlərin planlı şəkildə davam etdirilməsi, ehtiyatda olan hərbi qulluqçuların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə təlim toplanışlarının mütəmadi keçirilməsinə xüsusi diqqət yetirilməsini tapşırıb. General-polkovnik K.Vəliyev səfərbərlik ehtiyatlarının cəlb olunması ilə təşkil edilmiş komanda-qərargah təliminin gedişi ilə də maraqlanıb. Təlimin keçirilmə yerinə və səhra şəraitində açılmış təlim nöqtələrinə gələn Baş Qərargah rəisi aidiyyəti vəzifəli şəxslərin məruzələrini dinləyib. Təlimlərin keyfiyyətinin daha da artırılması, habelə cəlb olunan şəxsi heyətin peşəkarlığının və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinə dair hərbi hissələrin komandanlıqları qarşısında konkret tapşırıqlar qoyulub.

Sonra Raket və Artilleriya Qoşunlarının hərbi hissələrində olan Baş Qərargah rəisi təlim və məşqlərin keyfiyyətinin, eləcə də onların çöl şəraitində keçirilməsinin intensivliyinin artırılması, həmçinin döyüş heyətlərinin praktiki vərdişlərinin təkmilləşdirilməsinin vacibliyini qeyd edib.

Kəlbəcər və Laçın istiqamətlərində dislokasiya olunmuş hərbi hissələrə baş çəkən general-polkovnik K.Vəliyevə görülən işlər barədə məruzə olunub. İnşası davam etdirilən hərbi obyektlərdə tədbirlərin planauyğun yerinə yetirilməsi, habelə işlərin təyin edilmiş müddətdə başa çatdırılması barədə müdafiə nazirinin göstərişləri aidiyyəti vəzifəli şəxslərə çatdırılıb.

## Komandoların yüksək dağlıq ərazi və sərt qış şəraitində hazırlığı izlənilib

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, Quru Qoşunların komandanı general-leytenant Hikmət Mirzəyev və nazirliyin digər rəhbər heyəti komando hərbi hissələrindən birində olublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, hərbi hissənin komandir-rəis heyəti ilə görüşən Baş Qərargah rəisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuz qarşısında qoyduğu tapşırıqları onlara çatdırıb, müvafiq göstərişlər verib. Baş Qərargah rəisi hərbi hissənin gündəlik fəaliyyəti, döyüş hazırlığının vəziyyəti və xidmət şəraiti ilə maraqlanıb. Məruzə olunub ki, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və çətin şəraitdə tapşırıqları yerinə yetirməsi üçün lazımi şərait yaradılıb, müxtəlif tədbirlər keçirilir. Sonra general-polkovnik K.Vəliyev komandoların yüksək dağlıq ərazi və sərt qış şəraitində keçirilən döyüş və xüsusi hazırlığı üzrə praktiki məşqlərini izləyib. Komandoların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə təlim və məşqlərin intensivliyinin artırılmasının vacibliyi qeyd olunub.

Hərbi hissənin qarşısında duran tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsi məqsədilə bu kimi təlim və məşqlərin keyfiyyətinin daha da artırılmasına dair komandanlıq qarşısında konkret tapşırıqlar qoyulub.

## Hərbi vəzifəlilərin praktiki vərdişləri təkmilləşdirilir

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü il üçün hazırlıq planına əsasən, ehtiyatda olan bir qrup hərbi vəzifəlinin iştirakı ilə "N" hərbi hissəsində keçirilən təlim toplanışı davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təlim toplanışı çərçivəsində hərbi vəzifəlilərə atıcı silahların, qumbaraatanların taktiki-texniki xüsusiyyətləri, natamam söküb-yığılma və istifadə qaydaları öyrədilir. Bundan başqa, təlim sahəsində silahların döyüşə hazır vəziyyətinə gətirilməsi, atəş mövqeyinin tutulması və şərti düşmən hədəflərinin aşkar olunaraq düzgün nişanalma qaydalarına əməl etməklə məhv edilməsi üzrə tapşırıqları uğurla yerinə yetirilir.

Ehtiyatda olan bir qrup hərbi vəzifəlinin iştirakı ilə keçirilən təlimin əsas məqsədi onların döyüş hazırlığı səviyyəsinin, bilik və bacarıqlarının artırılması, o cümlədən praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

# Qarşı tərəfin müraciətinə əsasən...

## İlham Əliyevin Münxen görüşləri Azərbaycanın artan qlobal nüfuzundan xəbər verir



**Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Hazırda Azərbaycan regionda və dünyada öz mövqelərini sürətlə möhkəmləndirən, sosial-iqtisadi baxımdan inkişaf edərək Avroatlantik məkana inteqrasiya olunan bir ölkədir.**

Bununla yanaşı, müstəqil Azərbaycan həm qüdrətli, həm də dünya miqyasında etibarlı tərəfdaş dövlət kimi tanınır. Bütün bu uğurların yeganə səbəbi isə, əlbəttə ki, ölkə lideri İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətdir.

Məhz İlham Əliyevin uğurlu xarici siyasəti Azərbaycanın dünyada böyük etimad qazanaraq nüfuzlu dövlətə çevrilməsini təmin edib. Bu gün Azərbaycan müstəqil söz və yüksək nüfuz sahibi kimi qlobal proseslərdə aktiv mövqeyi ilə seçilir. Bu reallığı əks etdirən çoxlu faktlar mövcuddur.

### Hörmət, ehtiram və yüksək dəyər...

Azərbaycanın bugünkü reallıqlarına nəzər salsaq görərik ki, ölkəmiz, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tutub. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf məkanına çevrilib. İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərir. Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artmasına böyük təsir göstərməklə yanaşı, İlham Əliyevin dünyada şəxsi nüfuzunun artmasına gətirib çıxarıb. Beləliklə, cənab Prezidentin regionda mübaliğəsiz lider olduğunu isbat edib.

Xüsusilə qeyd etməliyik ki, İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizliyə və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirir və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərdə iştirakı, yüksək tribunalardan çıxış etməsi, yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir.

Prezidentin Münxen Təhlükəsizlik Konfransında iştirakı, konfrans çərçivəsində bir çox dövlət liderinin xahişi ilə keçirilən görüşlər bir daha sübut edir ki, dünya ölkələri Azərbaycanla əməkdaşlığa yüksək dəyər verir, İlham Əliyevi sözünün sahibi, etibarlı tərəfdaş və ən önəmli lider hesab edirlər. Ümumiyyətlə, Münxen Təhlükəsizlik Konfransı dünya liderlərinin, aparıcı beynəlxalq təşkilatların, nüfuzlu tədqiqat, elm mərkəzlərinin rəhbərlərinin, tanınmış ekspertlərin toplaşdıqları ən mühüm platformalardan biridir.

Azərbaycan müntəzəm şəkildə bu platformaya İlham Əliyevin şəxsində dəvət alır, dövlət başçısı müzakirələrdə fəal iştirak edir, qlobal və regional təhlükəsizlik məsələləri ilə öz dəyərli fikirlərini bölüşür.

Əgər diqqət etsək görərik ki, İlham Əliyev fevralın 16-17-də qarşı tərəflərin müraciətlərinə əsasən bir sıra mühüm görüşlər keçirib.

Görüşlər haqqında qarşı tərəfin müraciətləri və görüşlərin intensivliyi Azərbaycan Prezidentinin yüksək nüfuzunun, onun şəxsiyyətinə olan böyük hörmət və diqqətin göstəricisidir. Dövlət başçısının qrafikinə baxdıqda mövcud intensivliyi Azərbaycanla əməkdaşlıq etmək istəyənlərin sayının həddən artıq çox olması ilə bağlıdır. Bura dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, özəl sektorun nümayəndələri daxildir.

### Azərbaycan dünyada orta güc hesab olunan ölkələr kateqoriyasına daxildir

Maraqlı görüşlərdən biri isə ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borq ilə keçirilib.

Prezident İlham Əliyev 30 il yarıtmaz fəaliyyətlə məşğul olan ATƏT-in Minsk qrupu ilə bağlı maraqlı təklif də səsləndirib. Prezident ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin - bu xüsusda Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz olan bu strukturların artıq rəsmi qaydada ləğv edilməsinin vacib olduğunu bildirib. İlham Əliyev ATƏT çərçivəsində büdcənin də daha məqsədyönlü və vacib layihələrə istiqamətləndirilməsinin önəmini qeyd edib. Dövlət başçısı bir daha bəyan edib ki, Qarabağ münaqişəsi artıq həll olunub, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü təmin edib. Prezident həmçinin Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli xarakter daşıdığını diqqətə çatdırıb.

Bu qətiyyətli fikirləri ilə İlham Əliyev bir daha nümayiş etdirdi ki, Azərbaycan güclü, qüdrətli dövlətdir və kimsə bizimlə diktə dili ilə danışa bilməz.

Ümumilikdə, Münhen Təhlükəsizlik Konfransında Azərbaycanın iştirakı, keçirilən görüşlər ölkəmizin xarici siyasətinin artıq qlobal xarakter daşıdığını bir daha göstərir. Xarici siyasətin konturlarını dövlət başçımız fevralın 14-də inaqurasiya mərasimində də səsləndirib. Azərbaycan ikitərəfli formatda əməkdaşlığın tərəfdarıdır. Xarici siyasətimiz bərabərhüquqlu münasibətlərə, bir-birinə hörmət, xoş münasibət, bir-birinin işinə qarışmamaq prinsipləri üzərində qurulub. Azərbaycanın xarici siyasəti artıq regionun hüdudlarından kənara çıxan siyasətdir. Azərbaycan dünyada orta güc hesab olunan ölkələr kateqoriyasına daxildir. Bu kateqoriyaya BƏƏ, İsrail və bu kimi digər dövlətlər daxildir.

Bu nüfuzun formalaşmasının əhəmiyyətli tarixçəsi var. Azərbaycan Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövründə ölkəmiz dünyanın müxtəlif regionlarını bir araya gətirdi və konsensusu inkişaf etdirdi. COP-29 dünyanın gündəliyində dayanan, ən mühüm problemin həllinə həsr olunan qlobal tədbirdir. Azərbaycanın bu tədbirə evsahibliyi etməsinin dünya ölkələri tərəfindən dəstəklənməsi ölkəmizin effektiv, çoxtərəfli danışıqlar aparmaq, dünyanın ayrı-ayrı regionlarında fərqli baxışları bir araya gətirmək, konsensus əldə etmək, qlobal problemlərin həllinə töhfə vermək bacarığının və güclü potensialına olan inamın nəticəsidir.

Azərbaycanın bu bacarığı, əzmi dünya ictimaiyyəti tərəfindən təqdir olunur. Azərbaycan Cənubi Qafqaz, Xəzər dənizi, Qara dəniz, Mərkəzi Asiya, Yaxın Şərq, postsovet məkanı, Avropa və digər regionlarla geniş əlaqələrə malikdir, bu bölgələrin bir çox ölkəsi ilə yaxın tərəfdaşlıq əlaqələri qurub və səmərəli qarşılıqlı əməkdaşlığın inkişafına nail olub. Buna görə də ölkəmiz qlobal səviyyədə öz siyasətini həyata keçirməyi bacaran etibarlı tərəfdaş imicini qazanıb. İllər uzunu Azərbaycanın bu potensialını ortaya qoymasına Ermənistan-Azərbaycan münaqişəsi mane olurdu. Artıq dünya ölkələri ilə əməkdaşlıq və tərəfdaşlıq əlaqələrini inkişaf etdirmək, təmaslarını gücləndirmək üçün Ermənistan və Qarabağ problemi yoxdur.

Azərbaycan sülhsevər ölkədir, qonşu dövlətlərlə, digər regionlarla sülh gündəliyini təşviq edir. Ölkəmiz bundan sonra da öz xarici siyasətini bu prinsiplər və parametrlər əsasında quracaq və inkişaf etdirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Yüksək ehtiramın təcəssümü

"İlk öncə qeyd etmək lazımdır ki, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən ikitərəfli görüşlər qarşı tərəfin müraciətləri və xahişləri ilə baş tutub. Bu, Azərbaycanın dünyada günbəgün artan nüfuzu və Prezident İlham Əliyevə olan qlobal ehtiramla əlaqədardır. Deməli, müstəqil şəkildə və inamla həyata keçirilən xarici siyasətimiz öz bəhrəsini verir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, Azərbaycanın bu konfransda iştirakı ölkəmizin xarici siyasətinin qlobal xarakter daşıdığının göstəricisidir: "Münxen Təhlükəsizlik Konfransı Avropada keçirilən ən böyük tədbirlərdən biridir. Bu tədbir regionun, eləcə də dünyanın fərqli ölkələrinin liderlərini, iş adamlarını, eləcə də beyin mərkəzlərinin rəhbərlərini bir yerə toplayır. Azərbaycan Prezidentinin bu tədbirdə təmsil olunması ondan xəbər verir ki, bu, kifayət qədər nüfuzlu tədbirdir, həm də ölkəmiz Münxen Təhlüləsizlik Konfransına xüsusi önəm verir. Bu konfrans və keçirilən ikitərəfli görüşlər Azərbaycan həqiqətlərini bir daha təqdim etmək üçün yüksək platformadır. Prezident İlham Əliyev hər zaman olduğu kimi, bu dəfə də konfrans çərçivəsində önəmli bəyanatlar verib, Cənubi Qafqazla bağlı təşkil edilən müzakirələrdə Azərbaycanın mövqeyini geniş auditoriyaya təqdim edib".

Vüqar Bayramov ikitərəfli görüşlərin qarşı tərəfin istəyi ilə baş tutmasını belə izah edib: "Ölkəmizin xarici siyasəti artıq regionun hüdudlarından kənara çıxıb. Azərbaycan dünyada orta güc hesab edilən ölkələr kateqoriyasına daxil olub. Buna xüsusən Vətən müharibəsində və ötən ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirlərində əldə etdiyimiz zəfərlər nəticəsində ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etməklə nail olmuşuq. Görünən odur ki, bu faktorlar dünya birliyinin etibarlı tərəfdaşı kimi öz mövqeyini möhkəmləndirən Azərbaycana olan etimadı daha da artırır".

Deputat onu da bildirib ki, ikitərəfli görüşlər yeni dövrdə Azərbaycana xarici sərmayənin cəlb edilməsi baxımından da vacibdir: "Azərbaycanın Avropa və qlobal iş dünyası ilə əlaqələrinin daha da inkişaf etdirilməsi aspektindən baxdıqda bu, olduqca əhəmiyyətli hadisədir. Nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışında ölkəmizə xarici sərmayələrin cəlb edilməsinin əhəmiyyətini, texnologiya, innovasiya və eləcə də məşğulluq baxımından vacibliyini xüsusi qeyd etdi. Ona görə bu konfrans və görüşlər Azərbaycan üçün həm də ölkə iqtisadiyyatının təqdimatı, xarici investisiyaların cəlb edilməsi və Azərbaycanın aparıcı şirkətlərlə əlaqələrinin daha da güclənməsi və sair baxımdan önəmli hesab olunur. Beləliklə, Münxen konfransı, eyni zamanda Prezidentin keçirdiyi görüşlər Azərbaycan iqtisadiyyatı üçün yeni imkanlar yaratmaqla yanaşı, həm də ölkə həqiqətlərinin bir daha təqdim edilməsinə birbaşa imkan yaradır".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# İlham Əliyev Münxendə yeni reallıqları diktə edən qlobal lider kimi qarşılandı

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində bir sıra rəsmi şəxslər və xarici şirkətlərin rəhbərləri ilə onların müraciətlərinə əsasən görüşlər keçirib. Qarşı tərəfin xahişi ilə baş tutan görüşlər ölkəmizin nəinki Cənubi Qafqazda, həmçinin dünyada artan nüfuzundan xəbər verir.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, artıq 61-ci ildir ki, nüfuzlu qlobal platforma kimi hər il keçirilən Münxen Təhlükəsizlik Konfransı ötən dövr ərzində müxtəlif cür adlanmasına baxmayaraq, son nəticədə vahid bir hədəfə, sülhün təmin edilməsi üçün beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi, sülh üçün risklərin aradan qaldırılması, proseslərin mümkün inkişaf ssenarisi istiqamətində təsəvvürlərin və hətta yol xəritəsinin formalaşdırılmasına xidmət edib. Demək olar ki, bütün dövlətlərin təmsil olunduğu Münxen konfransında bir qayda olaraq dəyişməz kilid fiqurlar olur və sonrakı dövr üzrə təsəvvürlərin formalaşdırılması istiqamətində bu subyektlərin fikirləri əhəmiyyəli xarakter daşıyır. Azərbaycan özünün şaxələndirilmiş enerji siyasəti ilə dünya təhlükəsizliyində önəmli rol oynasa da, xüsusən 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin panel müzakirələrindən sonra Bakı məhz Prezident İlham Əliyevin personası fonunda bu tədbirin favorit söz sahiblərindən birinə çevrilə bilib.



Deputat qeyd edib ki, daha sonra Vətən müharibəsindəki qələbə ilə Azərbaycan beynəlxalq təhlükəsizlik platformasında mövqeyini kifayət qədər möhkəmləndirə bilib: "İstər Vətən müharibəsi, istərsə də antiterror tədbirlərində Ermənistan və havadarlarının iki dəfə kapitulyasiyaya məcbur edilməsi, Azərbaycanda separatizmə birdəfəlik son qoyulması ilə qlobal miqyasda özünü beynəlxalq ictimaiyyət adlandıran bir qup riyakar beynəlxalq subyektin Bakıya qarşı səlib yürüşü başlandı. Ötən dövr ərzində bütün təzyiq cəhdlərinin zərərsizləşdirilməsi, hətta bu kampaniyaya rəhbərlik edən Fransanın Şərqi Avropadan Orta Asiya və Yaxın Şərqə qədər uzanan nəhəng casus şəbəkəsinin ifşa edilməsi fonunda Prezident İlham Əliyev nümayiş etdirdi ki, Azərbaycan artıq hesablaşılan və dünyanın təhlükəsizlik arxitekturasında rəyi nəzərə alınmalı olan güc mərkəzidir. Bu mənada Azərbaycan Prezidentinin Münxen Təhlükəsizlik Konfransında iştirakı və səfərin ilk günündə reallaşan 10-a yaxın görüşün hər birinin Bakının deyil, məhz qarşı tərəfin müraciətinə əsasən reallaşması, hər şeydən öncə, yeni düzəndə Azərbaycanın "middle power" kimi özünü təsdiqləməsinin göstəricisidir. Bu prosesdə, heç şübhəsiz ki, açar faktor olaraq cənab İlham Əliyevin şəxsi nüfuzu çıxış edir".

B.Məhərrəmov bildirib ki, yaxın dövrə qədər Azərbaycana ittihamlar yağdırmaqla ehtiva edilən ritorikadan fərqli olaraq Münxendə cənab İlham Əliyevin daha çox yeni reallıqları diktə edən qlobal lider kimi qarşılandığı aydın formada görünür. Görüş təşəbbüskarları üçün dünyanın süni gündəminə çevrilməsinə çalışılan saxta mövzular ətrafında yox, daha çox cənab İlham Əliyevin əməkdaşlıq və regional təhlükəsizlik məsələlərində baxışları önəm daşıyır. İstər dövlət rəsmiləri, istərsə də qlobal iqtisadi güc subyektləri kimi tanınan özəl sektor nümayəndələri ilə görüşdə daha çox müstəqil, suveren Azərbaycanla iqtisadi əlaqələrini genişləndirməkdə maraq ifadə olunur. Əlbəttə, bu, Azərbaycan ətrafında Fransanın təhriki və rəhbərliyi ilə formalaşan süni çənbərin - Bakıya münasibətdə sanksiya təşəbbüslərinin fiaskosu deməkdir. Qlobal subyektlərin tədbirdə dövlət başçımızla iqtisadi-ticari, mədəni, humanitar əlaqələrin genişləndirilməsi barədə müzakirələrə cəhd etməsi, heç şübhəsiz ki, Azərbaycanın beynəlxalq hüququ rəhbər tutaraq özünün ərazi bütövlüyü və suveren haqlarını bərpa etməsində ehtiva olunan yeni status-kvonun sözsüz qəbullanması deməkdir. Bir sözlə, Münxen Təhlükəsizlik Konfransının ilk günü cənab İlham Əliyevin son bir il ərzində yaratdığı reallıqların bəyan edilməsi və qlobal subyektlər tərəfindən qəbullanması ilə xarakterizə olundu.

Deputat vurğulayıb ki, budəfəki tədbirin digər önəmli fərqi bir sıra Qərb subyektlərinin Azərbaycana münasibətdə ənənəvi "insan haqları, demokratiya və hüququn aliliyi" kimi alətlərdən də məhrum olmasıdır: "Cəmi üç gün öncə təntənəli andiçmə mərasimi ilə səlahiyyətlərinin icrasına başlayan cənab İlham Əliyev 7 fevral seçkilərində 92,12 faiz səslə qazandığı qələbə fonunda faktiki olaraq konfransda iştirak edən heç bir liderin öz ölkəsində olmadığı qədər dəstəyə malik nüfuz sahibi kimi tədbirə qatılıb. Hər kəs də qəbullanmağa məcburdur ki, əsas olan Qərbin saxta və özünü doğrultmayan stereotipləri yox, xalqın iradəsidir. Bu mənada əvvəllər qərəzi ilə gündəmə gələn qlobal güc mərkəzlərinin bu gün diqqəti daha çox ənənəvi enerji siyasətinə fokuslaması, Xəzər dənizinin karbohidrogen resurslarının dünya bazarına çıxarılmasını ehtiva edən layihələrdə birgə tərəfdaşlığın perspektivləri, kibertəhlükəsizlik və kosmik sahələrdə əməkdaşlıq barədə danışmağa üstünlük verməsi kifayət qədər pozitiv məqamlardır".

Onun sözlərinə görə, konfransın digər mühüm istiqaməti tədbirin Azərbaycanın yeni dövr üzrə müəyyən etdiyi prioritetlərin realizəsi istiqamətində əlavə imkanlar platformasına çevrilməsidir. Prezident andiçmə mərasimindəki çıxışında yeni dövr üzrə prioritetlərimizi, o cümlədən daxili və xarici siyasət kursunun sərhədlərini aydın formada müəyyən etmişdi. Xarici siyasət kursuna fokuslanan dövlət başçısı açıq formada bəyan etmişdi ki, Bakı artıq daha çox qlobal oyunçu kimi çıxış etmək niyyətindədir. Bu dövrə qədər Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv, 120 ölkənin isə bizi Qoşulmama Hərəkatına sədr seçməsi, habelə COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul olunması göstərir ki, cənab İlham Əliyev artıq Azərbaycanı qlobal oyunçuya çevirib. Bu mənada Münxen Təhlükəsizlik Konfransı həm də beynəlxalq hüquq subyektlərinin Azərbaycanın yeni xarici siyasət prioritetlərini qəbul etməsi baxımından mühümdür. Qarşı tərəfin müraciətinə əsasən, ATƏT-in fəaliyyətdə olan sədri İan Borq ilə görüş yeni dövrdə Azərbaycanın niyyətlərinin bir daha rəsmən bəyan olunması baxımından da əhəmiyyətli oldu.

"Azərbaycanın bu sahədə ən kritik şərti artıq bölgəyə Ermənistan-Azərbaycan münasibətləri çərçivəsində baxılmamasıdır. Cənab Prezidentin inaqurasiya mərasimindəki çıxışından da göründüyü kimi, yeni dövr üçün dövlət başçısının bu istiqamətdə yol xəritəsi kifayət qədər aydındır. Azərbaycan bu məsələdə qlobal spekulyasiyalara meydan verməyəcək və bu məsələnin əhəmiyyətinin süni şəkildə şişirdilməsinə lüzum yoxdur. ATƏT sədri ilə görüşdə də ifadə olunduğu kimi, "Qarabağ münaqişəsi artıq həll olunub, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü təmin edib. Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesi isə qlobal məsələ deyil, ikitərəfli xarakter daşıyır"", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin iradəsi o yöndədir ki, qalib tərəf olaraq bizim Ermənistan kimi üçüncü dünya dövləti ilə münasibətlərə xüsusi vaxt ayırmaq niyyətimiz yoxdur. Andiçmə mərasimində də deyildiyi kimi, indi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, sülh müqaviləsi imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Ona görə də ölkə rəhbəri açıq formada bəyan etdi ki, indiki halda ATƏT də bu reallıqları qəbul etməli, bu qurum çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlər - ATƏT-in Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz olan strukturlar rəsmi qaydada ləğv edilməli, qurumun büdcəsi daha məqsədyönlü və vacib layihələrə istiqamətləndirilməlidir.

B.Məhərrəmov qeyd edib ki, uzun illər məqsədli formada davam etmiş regional problemlər ucbatından daha çox lokal reallıqlara köklənməli olmuş Azərbaycan Prezdident İlham Əliyevin liderliyində artıq iqlim dəyişiklikləri, islamofobiyaya və neokolonializmə qarşı mübarizə kimi dünyanı narahat edən problemlərin həllində, habelə bərpaolunan enerji siyasətini inkişaf etdirməkdə nəticələrə fokuslanıb: "Münhendə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Odil Reno-Bassonun ölkəmizin bərpaolunan enerji layihələri və yaşıl keçid istiqamətində siyasətinin də AYİB tərəfindən təqdir edildiyini və dəstəkləndiyini bəyan etməsi, habelə digər müzakirələrdə, COP29-un keçirilməsinin daha geniş miqyasda iqtisadi layihələrin reallaşdırılması potensialının gücləndirilməsi işinə xidmət etməsi barədə fikirlərin səslənməsi bunu bir daha sübut edir. Müəyyən aradan sonra, nəhayət, Vaşinqtonun da ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteynin qismində Azərbaycanın regionda strateji əhəmiyyətə malik ölkə olduğuna bir daha diqqət çəkməsi Bakının yeni prioritetlərinin qlobal miqyasda qəbullandığını göstərməkdədir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Hədəf daha güclü Azərbaycan yaratmaqdır

**Dövrünün bütün qüdrətli liderlərinin uğurunu şərtləndirən əsas cəhətlərdən biri məhz strateji düşüncə, zamanın axarını duymaq bacarığı və gələcəyə hazır olmaq əzmidir. Müasir dünyamızın ən parlaq dövlət adamlarından olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin, verdiyi qərarların məzmununa nəzər yetirdikdə dövlət rəhbərimizin bütün qüdrətli liderlərə xas olan yüksək cəhətləri necə uğurla öz şəxsiyyətində birləşdirdiyini görə bilirik.**



Xalqımızın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyevin Milli Məclisdəki andiçmə mərasimi milli dövlətçilik ənənələrimizin əlamətdar anlarından biri kimi tarixə yazıldı. Azərbaycan bununla yeni bir dövrə daxil oldu. Dövlət rəhbərimizin andiçmə mərasimindəki çıxışı həm cənab İlham Əliyevin 2003-cü ildən bəri ölkəmizə rəhbərlik etdiyi tarixi dövrə ümumi baxış, həm mövcud reallıqların dəyərləndirilməsi, həm də gələcəyin proqnozlaşdırılması etibarilə böyük maraq kəsb edirdi. Bu, əslində, 20 illik yüksəliş və inkişaf mərhələsinin əsl mahiyyətini, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın şərəf salnaməsini gözlərimiz önündə bir daha canlandırdı.

Cənab İlham Əliyev prezident seçkisində ona yenidən böyük etimad və dəstək göstərən xalqımıza öz dərin təşəkkürünü yetirərək bəyan etdi ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlindən gələni əsirgəməyəcək.

## Bütün vədlər yerinə yetirilib

"İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi".

Əgər Azərbaycan Prezidentinin 2003-cü ilin oktyabrında keçirilmiş inaqurasiya mərasimindəki çıxışını təhlil edib həmin çıxışla iki onillik ərzində yaradılmış tarixi reallıqlar arasında müqayisələr aparsaq, görərik ki, cənab İlham Əliyevin 20 il əvvəl xalqımız qarşısında verdiyi bütün vədlər yerinə yetirilib. Azərbaycan vətəndaşlarının istəyinə uyğun olaraq Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasətin davam etdirilməsi, o cümlədən bu siyasətin əsas prioriteti olan ölkəmizin ərazi bütövlüyü məsələsinin təmin olunması - Ata vəsiyyətinin yerinə yetirilməsi həmin vədlər sırasında birinci gəlir. Azərbaycan Prezidenti 2003-cü ildə də, ondan sonrakı andiçmə mərasimlərində də bəyan etmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycan xalqı heç vaxt öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Nəyin bahasına olursa-olsun, doğma torpaqlarımız azad ediləcək. Cənab İlham Əliyev illər ərzində böyük səbirlə, təmkinlə iştirak etdiyi sülh danışıqlarının artıq heç bir mənasının olmadığına, ərazi bütövlüyümüzün bərpasından ötrü hərbdən başqa bir yolun qalmadığına tam əminlikdən sonra ordumuzun gücü ilə problemi həll etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə xalqımız yumruq kimi birləşərək torpaqlarımızın azadlığına, ərazi bütövlüyümüzə, dövlət suverenliyimizə nail oldu.

"Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik", - deyə cənab İlham Əliyev andiçmə mərasimindəki çıxışında vurğuladı.

Bizim ən böyük istəyimiz regionumuzda daimi sülhün, davamlı inkişafın, bütün maraqlı tərəflərin faydalana biləcəyi qarşılıqlı əməkdaşlıq mühitinin olmasıdır. Bu gün Azərbaycan dövləti təkcə yurdlarımızı yenidən qurmur, illərlə doğma torpaqların həsrətini çəkən həmvətənlərimizi əzəli məskənlərimizə yetirmir, eyni zamanda bölgəmizin ekologiyasına sahib çıxır, qırılan meşələrimizi həyata qaytarır, zəhərlənən çaylarımızı təmizlədir. Rəsmi İrəvan bir neçə onillik ərzində Qarabağda, Şərqi Zəngəzurda ağır cinayət əməlləri törətmişdi. Azərbaycan vətəndaşlarının min bir əziyyətlə qurduqları evlərin dağıdılması, dövlətimizin illər boyu yaratdığı sosial-iqtisadi infrastrukturun məhvi, tarixi binalarımızın, mədəniyyət müəssisələrimizin, məscidlərimizin və digər müqəddəs məkanlarımızın tar-mar olunaraq Yer üzündən silinməsi, ətraf mühitə qarşı ekoloji cinayətlər bunun ayrı-ayrı təzahürləridir. Haqq, ədalət bizimlədir. Bu dəyərlərin bizim tərəfimizdə olduğunu bilirik. Bu bizə böyük güc verir, mövqeyimizi möhkəmləndirir, haqqımız olanı almaq üçün mücadiləmizi davam etdirməyə, doğru olanları etməyə yönəldir.

## Erməni separatçılarının tabutuna vurulan son mismar

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı ilə cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya ordusunu tam iflic vəziyyətinə salan, onları ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur qoyan qüdrətli ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə daha bir tarix yazdı. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. 7 fevral növbədənkənar prezident seçkisinin müstəqillik tariximizdə ilk dəfə olaraq ölkənin bütün ərazisində keçirilməsi, Azərbaycan Prezidentinin özünün bir zamanlar erməni separatizminin əsas mərkəzi olmuş tarixi şəhərimiz Xankəndidə səs verməsi xalqımızın bu nailiyyətinin bütün dünyaya nümayişi oldu.

Cənab İlham Əliyevin Xankəndidə səs verdiyi bina vaxtilə erməni separatizminin əsas yuvası idi. Ötən əsrin 80-ci illərinin sonlarından Azərbaycan xalqına qarşı qanlı cinayətlər məhz burada başlanmışdı. Burada xalqımıza qarşı soyqırımı əməlləri planlaşdırılır və idarə olunurdu. Həmin binanın önündə erməni millətçiləri, daha sonra isə Ermənistan dövləti Azərbaycana qarşı soyqırımı iddiaları irəli sürürdü. Vaxtilə Qarabağı Azərbaycandan ayırmaq istəyənlər bu binada xüsusi komitə də yerləşdirmişdilər. Ona görə də bu bina tarixən erməni separatizminin simvollarından birinə çevrilmişdir. Bu baxımdan Azərbaycan Prezidentinin məhz həmin binada təşkil olunmuş məntəqədə səsverməsi böyük rəmzi məna daşıyırdı. "Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi" - həmin anın tarixi mahiyyətini Azərbaycan Prezidentinin andiçmə mərasimindəki çıxışında səsləndirdiyi belə bir unudulmaz cümlədən gözəl ifadə etmək mümkün deyil.

Cənab İlham Əliyev çıxışı zamanı Azərbaycanın artıq daxil olduğu yeni strateji dövrün ümumi mənzərəsini də canlandırdı, əsas hədəflərini diqqətə çatdırdı. Reallıq bundan ibarətdir ki, müstəqil dövlətimiz bu yeni dövrə tarixin ağır mirasından xilas olmuş, bir zamanlar həlli müşkül görünən problemləri uğurla yoluna qoymuş şəkildə, eyni zamanda əvvəlki dövrlərin zəngin təcrübəsi ilə daha da güclənmiş halda, milli qürurunu, ləyaqətini bərpa etmiş tərzdə - alnıaçıq, üzüağ daxil olur. Davamlı inkişaf, ardıcıl nailiyyətlər, önümüzdəki böyük hədəflərə çatmaq üçün qarşımızda keçilməsi qeyri-mümkün maneələr yoxdur.

"Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub" deyən Azərbaycan Prezidenti buna böyük əminliyini ifadə etdi: "Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan Bayrağı ərazimizin hər bir yerində dalğalanacaq… Bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, bizim siyasətimiz bundan ibarət idi. Biz bütün gücümüzü səfərbər edib bu hədəfə doğru gedirdik, biz hər gün, hər saat bu müqəddəs günü yaxınlaşdırırdıq. Bu gün xalqımız yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayır. …Biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun".

## "Biz elə ordu yaratmışıq ki…"

Azərbaycan Prezidenti yeni strateji dövrdə ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsini əsas vəzifələrdən biri kimi diqqətə çatdırdı. Ordu quruculuğu ölkəmizdə davamlı bir prosesdir. Hazırda dövlət büdcəmizdə də ən böyük xərclər, məhz hərbi xərclər Qarabağ və Şərqi Zəngəzurun bərpasına yönəlmişdir. Ordu quruculuğu prosesi 44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra da uğurla davam etdirilib. 2023-cü ilin sentyabrındakı antiterror əməliyyatı Azərbaycan Ordusunun hətta 2020-ci ildəkindən də nə qədər qüdrətli olduğunu göstərir. Cənab İlham Əliyev bəyan etdi: "Biz elə ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz".

Güclü hərbi sənaye kompleksinin yaradılması da yeni dövrün əsas prioritetlərindən olacaq. Cənab İlham Əliyev artıq bunun birinci mərhələsinin başa çatdığını, ikinci mərhələsinin isə daha da genişmiqyaslı olacağını bildirdi. Bununla Azərbaycan özünü daha böyük həcmdə silah-sursat, texnika ilə təmin edəcək və bu sahədə də xarici asılılıq aradan qalxacaq. Siyasi, iqtisadi cəhətdən özünün tam müstəqilliyini bərpa etməyə müvəffəq olmuş dövlətimiz üçün bu, çox ciddi faktordur. Dünyanın müxtəlif bölgələrinin müharibə ocaqlarına çevrildiyi bir dövrdə ordu quruculuğu, müdafiə sənayesi potensialının gücləndirilməsi, ərazi bütövlüyü bərpa olunmuş ölkəmizin bütün sərhədlərində müasir mühafizə infrastrukturunun yaradılması və sərhədlərimizin ən etibarlı şəkildə qorunması çox mühüm amildir. Azərbaycan dövləti yeni strateji dövrdə bütün bu məsələlərə xüsusi diqqət yetirir, eyni zamanda xarici təhdidlərdən, sərhədlərin o biri üzündən gələn ideoloji risklərdən qorunmaq üçün tədbirlər görür.

Azərbaycan Prezidenti sərhəd tanımayan ideoloji risklərin dəf edilməsi üçün gənc nəslin vətənpərvərlik və milli ənənələr ruhunda tərbiyə olunmasını əsas vəzifələrdən biri kimi aktuallaşdırdı. Bildirdi ki, gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir. Burada isə sağlam ailə dəyərləri, məktəb tərbiyəsi mühüm əhəmiyyət daşıyır. Ölkəmizdə mövcud olan milli birlik yeni strateji dövrdə də qorunacaq, vətəndaş cəmiyyəti quruculuğu prosesləri davam etdiriləcək.

## Quruculuq və texnoloji inkişaf dövrü

Azərbaycanın ilk addımlarını atdığı bu yeni başlanğıcın əsas tarixi vəzifələrindən biri də şanlı Qələbəmizdən sonra Qarabağın, Şərqi Zəngəzurun tam bərpası, torpaqlarımızın minalardan təmizlənməsi, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qayıdışıdır. Bu məsələlər uğurla yerinə yetirilir. Ölkəmizin yanvar ayındakı iqtisadi göstəriciləri də iqtisadi inkişaf tempinin bərpa olunduğunu göstərir. Əldə olunan nailiyyətlər sosial-iqtisadi inkişaf proqramlarını uğurla yerinə yetirməyə imkan yaradır. "Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır" deyən Azərbaycan Prezidenti əldə edilmiş razılaşmaların, imzalanmış kontraktların yaxın bir neçə ildə özünü göstərəcəyini və bunun sıçrayış olacağını xüsusi vurğuladı.

Yeni strateji dövrdə ən əsas məsələlərdən biri də texnoloji inkişafın təmin edilməsindən ibarət olacaq. Dövlət rəhbərimiz bildirdi ki, texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi - bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar: "Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Ancaq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək. Ona görə texnoloji inkişafa nail olmasaq, burada geniş, yəni bir neçə min yox, on minlərlə azərbaycanlı bu işdə olmasa, biz geridə qala bilərik".

## Bizim ailəmiz türk dünyasıdır

Azərbaycan Prezidentinin andiçmə mərasimindəki çıxışının ən yaddaqalan məqamlarından biri də ölkəmizin bundan sonra beynəlxalq təşkilatlarla atacağı addımlarla bağlı oldu. Cənab İlham Əliyev bəyan etdi ki, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. " Bizim ailəmiz türk dünyasıdır. Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayrıcı xətlər müşahidə olunur… Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik". Dünyanın yeni çağırışlar, təhdidlərlə üzləşdiyi müasir dövrümüzdə türk dövlətlərinin belə qarşılıqlı inamı, müştərək tədbirləri, ölkələrimiz arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan zirvə görüşü zamanı dövlət rəhbərləri arasında aparılan müzakirələr, əldə olunan razılaşmalar, ticarət, mədəniyyət, enerji, nəqliyyat və sairə bu kimi istiqamətlərdə imzalanan müxtəlif sənədlər türk dövlətlərinin birliyi üçün yeni fürsətlər açır. Tarixən türk dünyasının əsas mərkəzlərindən olan Azərbaycanı XXI əsrdə də bu birliyin mərkəzində görmək qürurverici hissdir.

Azərbaycan haqq işimizə daim dəstək verən İslam Əməkdaşlıq Təşkilatı, hazırda inkişafında ölkəmizin müstəsna rol oynadığı Qoşulmama Hərəkatı kimi təşkilatlar formatında, COP29 kimi möhtəşəm tədbirə evsahibliyi ilə, kommunikasiya imkanları ilə qlobal proseslərə təsir imkanlarını daha da gücləndirəcək, dünyada dayanıqlı inkişafa, iqlim dəyişikliyinin qarşısının alınmasına, neokolonializm, dini, irqi ayrı-seçkilik kimi təzahürlərə qarşı mübarizəyə - bir sözlə, insanın xoşbəxtliyi və rifahına töhfələrini verəcək.

Vətən müharibəsi tarixi dəyişdi, həyatımızda yeni başlanğıcların əsasını qoydu, eyni zamanda düşüncələrdə də böyük dəyişikliklərə yol açdı. Bu gün tarix səhnəsində ötən əsrlərin ən böyük Zəfərini qazanmış, dövlətimizin, ordumuzun, milli vəhdətimizin verdiyi ruhla sarsılmaz gücə sahib Azərbaycan xalqı, qətiyyətli Liderin - Prezident İlham Əliyevin mətin iradəsi, bu günə və gələcəyə aydın baxışı, müdrikliyi sayəsində tarixinin ən qüdrətli mərhələsinə yetişmiş Azərbaycan dövləti var. Bütün bunlar xalqımızın layiq olduğu qalibiyyət, qüdrətlilik duyğusunu gücləndirir, bizi yeni dövrün milli hədəflərinə doğru aparır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qayıdış hədəfi

## Bu ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş məcburi köçkünün dönüşü planlaşdırılır

Azərbaycan dövləti onilliklər boyu düşmən tərəfindən talanan, viran qoyulan, tarixi, dini, mədəni abidələri, infrastrukturu dağıdılan, ekologiyası, flora və faunası məhv edilən Qarabağ və Şərqi Zəngəzuru yenidən dirçəldir, yurdlarından didərgin salınan yüzminlərlə keçmiş məcburi köçkünün dədə-baba yurdlarına Böyük qayıdışı üçün layiqli və təhlükəsiz həyat şəraiti qurur.



Qarabağ və Şərqi Zəngəzura qayıdışı milli prioritetimiz kimi xarakterizə edən Prezident İlham Əliyevin şəxsi nəzarəti altında bu ərazilərdə dünyada tayı-bərabəri olmayan tikinti, quruculuq işləri aparılır. Bölgənin hərtərəfli inkişafı üçün mühüm layihələr gerçəkləşdirilir. Qısa zaman müddətində görülən nəhəng işlərin nəticəsidir ki, bu gün beş mindən çox insan öz dədə-baba yurduna qayıdıb.

Fevralın 14-də keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev vurğuladı ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir: "Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir".

## Milli prioritet

İnaqurasiya mərasimindəki çıxışında Prezident İlham Əliyev onu da bəyan etdi ki, dövlətimizin qarşısında duran önəmli vəzifələrdən biri də məhz Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir.

Böyük qayıdışın həyata keçirilməsi üçün işğaldan azad edilən ərazilər sürətlə minalardan təmizlənir (artıq 120 min hektar tamamilə təmizlənib) və burada geniş tikinti-quruculuq işləri aparılır. Bu yerlərdə bütün sosial infrastruktur qurulur, xəstəxanalar, məktəblər, idman obyektləri tikilir, yollar, tunel və körpü inşa edilir, dəmir yolları çəkilir. "Ağıllı kənd və şəhərlər" salınır.

Çox qısa zamanda Qarabağ və Şərqi Zəngəzurda iki beynəlxalq hava limanının - Füzuli və Zəngilan hava limanlarının tikilərək istifadəyə verilməsi, üçüncü beynəlxalq hava limanının isə Laçında sürətli inşasının aparılması bu ərazilərdə görülən işlərin miqyasını əyani şəkildə gözlər önünə sərir.

Erməni vandallığına məruz qalan tarixi, dini, mədəni abidələrimiz Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən yüksək səviyyədə bərpa olunur.

Böyük qayıdış proqramının uğurlu icrasının nəticəsidir ki, keçmiş məcburi köçkünlər mərhələ-mərhələ dədə-baba torpaqlarına qovuşurlar. 2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qaytarılması ilə start verilən Böyük qayıdış ötən il də davam etdirildi. Belə ki, ötən ilin mart ayında Tərtərin Talış kəndinin, may ayında Laçın şəhərinin, avqust ayında Füzuli şəhərinin və Laçın rayonunun yenidən salınan Zabux kəndinin sakinlərinin yurda qovuşma sevincinə şahidlik etdik. Ötən il ərzində fərqli tarixlərdə sadalanan ərazilərə xeyli qayıdış həyata keçirildi.

2024-cü ilin ilk ayında da işğaldan azad edilən yurdlarımıza dəfələrlə qayıdış köçü oldu. Yanvarın 18-dən etibarən müxtəlif tarixlərdə beş köç karvanı Füzuli, biri isə Laçın şəhərinə yola salındı.

Ümumilikdə bu günə qədər təxminən 5400 keçmiş məcburi köçkün öz doğma yurd-yuvasında xoşbəxt yaşama başlayıb.

## Gerçəkləşdiriləcək planlar

Bu il isə ən azı 20 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlərin qaytarılması planlaşdırılır. Andiçmə mərasimində bu barədə məlumat verən dövlət başçısı bildirdi ki, plan azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kənddə artıq inşaat işləri başlanıb: "Biz Böyük qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq.

Yəni geniş quruculuq işləri görüləcək. Əlbəttə ki, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin tarixi siması bərpa ediləcək".

Keçmiş məcburi köçkünlərin bu il qaytarılacaqları şəhərlər arasında Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi, Xocalı şəhərləri də olacaq.

Bu ilin ilk 6 ayında isə Xocalıya və Xankəndiyə köç olması, bu ərazilərə ümumilikdə 100 ailənin - Xocalıya 50, Xankəndiyə 50 ailənin köçürülməsi nəzərdə tutulub. Həmçinin bu il ərzində Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə də keçmiş məcburi köçkünlərin ilk qrupunun köçürülməsi planlaşdırılır.

Göründüyü kimi, Böyük qayıdış Azərbaycan dövlətinin qarşısına qoyduğu önəmli vəzifələrdən biridir və bu istiqamətdə həyata keçirilən effektiv işlər sayəsində Qarabağ və Şərqi Zəngəzur dirçəlir, bu yerlərdə həyat axarına düşür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Yeni mərhələnin hədəfləri Azərbaycanı daha da qüdrətləndirəcək



"Azərbaycan Prezidentinin fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimi böyük tarixi hadisədir və ictimai-siyasi əhəmiyyət daşıyır. Bütün ölkə ərazisində keçirilən seçkilər nəticəsində qalib olan Prezidentin andiçmə mərasimi dövlətçilik tariximizdə mühüm yer tutacaq. Bu həm də dövlət başçısının verdiyi sözə və müqəddəs vədə əməl etməsinin siyasi təcəssümü, siyasi proqramının uğurla həyata keçirilməsinin manifesti sayıla bilər".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov bildirib. Deputat qeyd edib ki, şərəfli və nümunəvi fəaliyyəti ilə özünün möhtəşəm siyasətçi statusunu təsdiqləyən və dövlət başçıları arasında yüksək keyfiyyətləri ilə diqqəti cəlb edən Prezident İlham Əliyev bu gün dünya siyasətinin müəyyənləşdirilməsində iştirak edən, yol göstərən siyasi liderdir. Onun təkcə regionda deyil, dünyada cərəyan edən siyasi proseslərə baxış bucağı və yanaşma prinsipləri siyasi dialoqa, sülhpərvər missiyaya, faydalı əməkdaşlığa və qarşılıqlı rifaha xidmət edir.

A.Hüseynov deyib ki, Prezident andiçmə mərasimində yeni dövr üzrə prioritetləri, daxili və xarici siyasət kursunu aydın formada müəyyən etdi: "Bəyan olunduğu kimi qarşıdakı dövr üzrə təhlükəsizlik, sabitlik və müdafiə qabiliyyətinin gücləndirilməsi, ordu quruculuğu və hərbi sənayenin inkişafı əsas milli hədəflər kimi davam etdiriləcək. Prezident tarixi çıxışında qeyd etdiyi kimi, "İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri ilə sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edirsə ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq". Ona görə də hərbi rəşadətin artırılması, milli hərbi təhlükəsizlik və sərhədlərimizin təhlükəsizliyinin daha da gücləndirilməsi ən başlıca prioritet kimi diqqətdə saxlanılacaq. Azərbaycan İlham Əliyevlə yeni, eləcə də davamlı uğurların və xoşbəxt gələcəyin astanasına, tərəqqinin 5-ci mərhələsinə daxil olur. Prezident İlham Əliyev ona etimad göstərmiş seçicilərə minnətdarlığını bəyan etdi, qarşıda yeni inkişaf və tərəqqi naminə birlikdə görüləcək işlərin ssenarilərini, atılacaq addımların hədəflərini bildirdi. Azərbaycan dövləti güclü sosial islahatların trayektoriyasını geniş şaxələrə əsaslanaraq irəlilətməyi, bununla da insanların rifahının ən yüksək həddə çatdırılmasını təmin etməyi başlıca trendlərdən hesab edir və qarşıdakı illərdə bu mühüm prioritetlər rifahın daha da yaxşılaşmasına xidmət edəcək. Eləcə də milli iqtisadiyyatın ana xətti olan sahibkarlığın inkişafı, azad biznesə və özəl sektora dövlət dəstəyinin yeni mərhələsi başlayır".

Deputat bildirib ki, yeni dövrün memarı olaraq İlham Əliyev xarici siyasət kursu ilə bağlı da fundamental prinsipləri bəyan etdi: "Xarici siyasət kursumuzun ikinci vacib konseptual elementi isə Azərbaycanın daha çox qlobal oyunçu kimi çıxış etmək niyyətində ehtiva olunur. Bütün ölkələrlə qarşılıqlı hörmət və faydalı əməkdaşlıq, beynəlxalq fəaliyyətdə humanizm və təşəbbüskarlıq əsas prioritetlərdir. Ana milli hədəf isə türk dünyası ilə əlaqələrin daha da möhkəmləndirilməsidir. Dövlət başçısının təbirincə, "böyük coğrafiya, böyük ərazi, böyük hərbi güc, böyük iqtisadiyyat, təbii sərvətlər, nəqliyyat yolları, gənc və artan əhali" kimi vacib elementləri birləşdirən Türk Dövlətləri Təşkilatı həm də bir soydan, eyni kökdən xalqlar olması baxımından Azərbaycan üçün ailədir və bu ailə daha da qardaşlaşacaq, dünyaya örnək olacaq, iqtisadi möcüzələr bəxş edəcək".

Aydın Hüseynov həmçinin qeyd edib ki, Prezident İlham Əliyevin milli birlik və həmrəylik, ideoloji bütövlük və tamlıq, azərbaycançılıq ideologiyası, ailə dəyərlərinin qorunması, gənc nəslin milli məfkurə və vətənpərvərlik ruhunda tərbiyə olunması kimi dəyərli prioritetlərin də qarşıdakı illərdə dövlət siyasətinin əsas konturlarını təşkil edəcəyi barədə fikirləri yeni epoxada Azərbaycanın qüdrətli sosial-humanitar dövrə başladığını ehtiva edir.

Müsahibimizin dediklərinə görə, yeni yeddiillik dövr demokratik cəmiyyətin, liberal bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin yeni müstəvidə və modern mərhələdə gücləndirilməsi, neft gəlirlərinin məqsədyönlü idarə olunması və birbaşa insan amilinə, yəni intellektual kapitala yönəlməsi, qeyri-neft sahələrinin potensialının daha da gücləndirilməsi, azad edilmiş ərazilərin iqtisadi imkanlarının ölkə iqtisadiyyatına reinteqrasiyasının təmin olunması, rəqəmsal cəmiyyətin qurulması kimi milli hədəflərə çatmaq üçün ən optimal və inamlı mərhələ olacaq.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Prezident Azərbaycanın milli strategiyasının yol xəritəsini təqdim etdi



"Cənab İlham Əliyev 7 fevraldakı Zəfər seçkisində xalqın mütləq əksəriyyətinin səsi ilə qarşıdakı yeddi il müddətinə Prezident seçildi. Dövlət başçısının fevralın 14-də Milli Məclisdə andiçmə mərasimindəki nitqi Azərbaycanın milli strategiyasının yol xəritəsi kimi dəyərləndirilməlidir".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov deyib. Deputat bildirib ki, Prezidentin çıxışının əsas qayəsini güclü ordu, dayanıqlı iqtisadiyyat, daxili sabitlik, sosial siyasətin yeni çağırışlara uyğun inkişaf etdirilməsi, gənc nəslin milli ruhda yetişdirilməsi və onun tərbiyəsi təşkil edirdi: "Növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri də təbii ki, ordumuzun daha da gücləndirilməsidir. Cənab Prezident bu məsələyə çox geniş toxundu və qeyd etdi ki, bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, silah-sursat, texnika alınır, yeni silahlı komando birləşmələri yaradılır. Prezident hərbi sənaye kompleksinin yaradılması barədə də danışdı. Dövlət başçısı qeyd etdi ki, öz ordumuzu böyük həcmdə silah-sursatla, texnika ilə təmin edəcəyik, həm də böyük həcmdə ixrac potensialımız olacaq. Beləliklə, xarici asılılığa son qoyulacaq".

V.İsgəndərov Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi ilə bağlı fikirlərinə də toxundu: "Bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlər qayıdacaq və əsas planlarımızdan biri ilin sonuna qədər 5 şəhərimizə, 15 kəndə iyirmi min keçmiş köçkünün qaytarılması və yerləşdirilməsidir. Yüzdən çox şəhər, rayon və kəndin baş planları hazırlanıb və təsdiqlənib. Həmin yerlərdə işlərin görülməsinə başlanılıb. Cənab Prezident söylədi ki, 2026-cı ilin sonuna qədər bu işlər başa çatacaq və ondan sonra 140000 keçmiş köçkün öz dədə-baba yurduna qayıdacaq".

Deputat qeyd edib ki, dövlət başçısı iqtisadiyyatın inkişaf etdiriləcəyindən də söz açıb. Bu ilin yanvar ayının nəticələri ümidvericidir. Ümumi daxili məhsulda 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artım qeydə alınıb. Artıq neftdən asılılığımız azalır və bu istiqamətdə görülən uğurlu islahatlar gələcəkdə öz bəhrəsini verəcək. Cənab Prezident gənc nəslin milli mənəvi ruhda tərbiyə olunmasını xüsusi vurğuladı və bu məsələyə çox ciddi yanaşmalı olduğumuzu bildirdi, bunu əsas vəzifələrdən biri kimi qarşıya qoydu. Çünki gənc nəslin düzgün tərbiyə edilməsi gələcəyimizin təmin edilməsi deməkdir. Yəni bütün bunlar prioritet məsələlərdir və sosial dövlət kimi yenə də bu proqram uğurla davam etdiriləcək. "Yeni çağırışlara və dəyişən dünyaya uyğunlaşmaq üçün iqtisadiyyatımız da doğru və düzgün inkişaf etməlidir. Bunun üçün potensialımız var. İnsanların layiqli yaşaması, maddi durumunun yüksədilməsi, əsasən də müharibə iştirakçıları, veteranlar, şəhid ailələrinə diqqət və qayğı göstərilməsi, onlarla bağlı görülən işlərin uğurla davam etdirilməsi qarşıda duran əsas məqsədlərimizdən biridir", - deyə o əlavə edib.

Prezident Azərbaycanın xarici siyasət məsələlərinə də diqqət çəkərək Türk Dövlətləri Təşkilatında uğurlu işlərin görülməsindən danışdı. Deputatın fikrincə, gələcəkdə TDT çərçivəsində birliyin daha da güclənməsi, təşəkkül tapması və birlikdə qarşıya çıxan hədəflərin dəf olunması əsas məqsədlərdən biridir. Təbii ki, Qoşulmama Hərəkatındakı fəaliyyətimiz, neokolonializm siyasətinə qarşı mübarizəmiz də davam edəcək: "Dünyanın ən inkişaf etmiş və güclü ölkələrindən birinə çevrilməyimiz üçün bütün vacib addımların atılması təmin ediləcək. Prezident andiçmə mərasimində ölkəmizin qarşıdakı illərdəki hədəflərini, milli maraqlarımız üzərində qurulmuş siyasətini, dövlətimizin hərtərəfli inkişafını, xalqımızın layiqli yaşamasını, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə almasını, ümumi olaraq gözəl, firavan Azərbaycanın gələcəkdə daha da inkişaf etdirilməsi üçün özünün yol xəritəsini göstərdi. Bu, onu deməyə əsas verir ki, ölkəmiz doğru yoldadır. Cənab Prezidentin liderliyi altında Azərbaycan daha böyük uğurlara və nailiyyətlərə imza atacaq".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Hulusi KILIÇ: "Prezident İlham Əliyevin qarşıya qoyduğu yeni hədəflər türk dünyasına böyük gələcək vəd edir"



"O, hamımızın arzusu, qəlblərimizin gizli və bir o qədər də açıq amalı olan bu müqəddəs məqsədə addım-addım, səbirlə və təmkinlə, böyük strateji dühası və dövlətçilik zəkası, ağlı ilə yaxınlaşırdı. Türk xalqlarının minillik diləyi vahid ideoloji məkanda birləşməkdir. Bunu türk millətinin fərdlərinin yaşadıqları bütün coğrafiyaya, yəni Qafqazdan Anadoluya, Mərkəzi Asiyaya, tarixi Ötükənə, ucsuz-bucaqsız Türküstana yaymaq, türk birliyini qurmaq və bunu dönməz etmək onun ən böyük məqsədlərindən biridir. And içərkən belə "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" dedi. Bu sözləri ifadə edərkən Prezident İlham Əliyevin nə qədər qəlbən sevinc və qürur hissləri keçirdiyini görməmək mümkün deyildi. Həqiqət budur ki, türk dünyasının böyük oğlu, Prezident İlham Əliyev bu kəlmələri deyərkən, sadəcə, Azərbaycan Lideri kimi çıxış etmirdi. Həmin vaxt qətiyyəti və sarsılmaz iradəsi ilə birmənalı şəkildə artıq yolumuzun hara istiqamətləndiyini və bu məqsədə çatmaq üçün yeni dövrün başladığını ifadə edirdi. Bu addımı xaricdən olan inanılmaz və ədalətsiz basqılara rəğmən atmaq cəsarətini göstərən bu dahi insanın hünəri ilə bir türk oğlu olaraq qürur duymamaq sadəcə mümkün deyil".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri, "İMZA" İctimai Birliyinin Türkiyə təmsilçisi Hulusi Kılıç ifadə edib.

Xalqının mütləq əksəriyyətinin dəstəyini qazanan Prezident İlham Əliyevin tutduğu yolun doğru olduğunu mütləq dünyaya çox böyük şücaətlə nümayiş etdirdiyini vurğulayan Hulusi Kılıç deyib: "Mən bu qətiyyəti və iradəni ancaq İstanbulu fəth etmiş Fateh Sultan Mehmetin 14 yaşında İmperiya qurmuş Şah İsmayıl Səfəvinin, Türkiyəni necə deyərlər küllərindən dirçəltmiş Mustafa Kamal Atatürkün və Azərbaycanı dağılmaqdan xilas edərək dövlət qurmuş Heydər Əliyevin göstərdikləri, şanlı Türk tarixinə yazılmış əzmkarlıq və qorxmazlıqları ilə müqayisə edə bilərəm".

Prezident İlham Əliyevin ifadələrinin tarixə qızıl hərflərlə yazıldığını qeyd edən H.Kılıç Prezident İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi fikirlərindən bu sitatları gətirib: "Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Qeyd edib ki, Prezident İlham Əliyevin bu sözləri Türk Dövlətləri Təşkilatının indiki statusundan daha ciddi və əhatəli, vahid mövqedən çıxış edən, eyni kökdən və soydan olan xalqların yaratdığı mühüm güc mərkəzi olacağını ifadə edir. Xüsusilə "Türk dövlətləri böyük hərbi gücdür!" ifadəsi yaxın perspektivdə TDT coğrafiyasında hansı mühüm proseslərin gedəcəyindən xəbər verən, bu strateji istiqamətə işarə vuran olduqca vacib və tarixi cümlədir.

"Fikrimcə, türk dövlətlərinin birliyi tədricən Avropa İttifaqına bənzər modeldə formalaşma mərhələsinə qədəm qoyacaq. İnteqrasiya siyasi, iqtisadi, hətta hərbi istiqamətdə daha aydın və məqsədyönlü şəkildə həyata keçiriləcək. Düşünürəm ki, biz artıq TDT liderlərinin Naxçıvan zirvə toplantısında əsasını qoyduqları strateji hədəfə sürətlə yaxınlaşmaqdayıq və ona görə də bu mənada yeni dövrü başlatdığımızı indidən söyləyə bilərik. Burada, əlbəttə, bütün türk dövlətlərinin vahid mövqedən çıxış etməsi çox vacibdir. Məncə, artıq hər bir türk dövlətində bu iradə və məqsəd var və biz yaxın zamanlarda bunun konkret nəticələrini mütləq görəcəyik. Çünki indiyədək keçilmiş bir uğurlu və çətin yol var. Hamımız bu yolla bütün xarici təzyiqlərə və maneələrə rəğmən inamla və mətinliklə irəliləmişik. Bu, həqiqətdir. Bütün türk dünyası bunu yaxşı başa düşür".

Türk xalqlarını birləşdirən amalın ortaq tarix, mədəniyyət, dil və sairə amillərin olduğunu vurğulayan sabiq səfir bildirib ki, artıq yeni dövr daha çevik qərar mexanizmlərinin mövcud olduğu strateji məna və əhəmiyyət daşıyacaq. Azərbaycan Prezidentinin andiçmə mərasimində səsləndirdiyi bu böyük coğrafiyadakı türk dövlətlərinin potensialı haqqındakı fikirləri də əslində faktdır. Bu potensial artıq tərəfimizdən hərəkətə keçirilib. Bu birlik bizə milli-mənəvi aspektlə yanaşı, həm də siyasi, iqtisadi, geosiyasi və hərbi mənada çox da uzaq olmayan parlaq və öz sözünü deyə bilən bir gələcək vəd edir. Fikrimcə, bu mütləqdir. İndi dünyanın analitik dairələrinin təhlillərində də bu fakt çox qabardılır və əsaslandırılır.

Türk coğrafiyasının, xüsusilə Qarabağ münaqişəsinin tam həllindən sonra dünya üçün həyati əhəmiyyət kəsb edən önəm qazandığını vurğulayan H.Kılıç qeyd edib ki, Orta dəhliz üzərində yerləşən dəniz, dəmir və avtomobil yolları, limanlar, qovşaqlar faktiki olaraq hazırda dünya iqtisadiyyatının xilası rolunu oynamaqdadır. "Əmin olun ki, yaxın perspektivdə bu amil daha da güclü və bariz şəkildə özünü göstərəcək, həmin o Qərb dövlətləri bu marşrutların əhəmiyyətini nəzərə alaraq real addımlar atacaqlar. Azərbaycan ilə Türkiyə başda olmaqla bütün türk dövlətləri ilə daha sıx münasibətlərin qurulması və mövcud münasibətlərin inkişafı onlar üçün həyati reallıqdır. Zamanında nə deyirdik? XXI əsr türk əsri olacaq. Məncə, biz artıq türk əsri haqqında tədricən gələcək zamandan daha çox indiki zamanda danışmağa öyrəşməliyik. Bu gerçəklik məhz İlham Əliyev kimi böyük Türk Liderinin sayəsində mümkün olub", - deyə sabiq səfir bildirib.

Mühüm bir məqamı xüsusilə vurğulamaq istədiyini ifadə edən Hulusi Kılıç qeyd edib ki, andiçmə mərasimində Prezident İlham Əliyevin dünyaya verdiyi mesaj olduqca açıq və aydın idi. Azərbaycanın siyasəti tam müstəqil, milli maraqlara söykənən siyasətdir və ondan qəti surətdə geri çəkilməyəcəyik, heç kimə heç bir güzəşt də olmayacaq. Prezident İlham Əliyevin xalqın birmənalı dəstəyi ilə həyata keçirdiyi siyasətin mahiyyəti məhz budur və biz bununla ancaq qürur duya bilərik. Bu böyük və müqəddəs yolda Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan başda olmaqla, bütün türk liderlərinə uğurlar diləyirəm.

# Yeni dövrdə də Azərbaycanın dinamik inkişafı təmin ediləcək



Fevralın 14-də keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev dövlətimiz üçün yeni dövrün xəritəsini çəkdi. Dövlət başçısının qeyd etdiyi kimi, bundan sonra da daha güclü iqtisadiyyat, ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləri olacaq".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, Azərbaycan son 20 ildə Prezident İlham Əliyevin qətiyyətli, prinsipial və demokratiyaya əsaslanan siyasəti nəticəsində inkişaf edərək dünyanın nüfuzlu ölkələrindən birinə çevrilib. Elə sonuncu prezident seçkiləri də Azərbaycanın demokratiya yolu ilə inamla irəlilədiyini bir daha bütün dünyaya nümayiş etdirdi. Bu siyasi hadisə də əvvəlki seçkilər kimi bütün parametrləri ilə respublikamızın tarixinə şəffaf seçki kimi yazıldı. Məhz dövlət başçısının milli maraqlara hesablanmış ardıcıl siyasətinin nəticəsi idi ki, seçkilər ilk dəfə torpaqlarımızın azadlığı şəraitində, bütün Azərbaycan ərazilərində keçirildi. Azərbaycan xalqı bu seçkidə də müdriklik nümayiş etdirərək ölkəmizə inkişaf və Zəfər bəxş edən siyasi kursun ətrafında yumruq kimi birləşdi".

Deputat qeyd edib ki, İlham Əliyevin andiçmə mərasimindəki çıxışı zamanı dediyi kimi, yeni dövrdə əsas vəzifəmiz ölkədəki siyasi sabitliyi qoruyub saxlamaqdır: "Həmçinin ötən 20 ildə Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən təmin olunnmuş sarsılmaz milli birlik və həmrəyliyimizi daha da möhkəmləndirməliyik. Əminik ki, Azərbaycan xalqı yeni dövrün uğurlu başlanğıcı və davamı üçün eynilə seçkilərdə olduğu kimi birlik nümayiş etdirəcək, ümummilli siyasi proseslərə olan yüksək münasibətini əks etdirəcək. İlk dəfə 2003-cü ildə xalqın etimadını qazanan Prezident İlham Əliyev yeni dövrdə də Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirəcək. İlham Əliyevin müdrikliyinin, qətiyyətli siyasətinin göstəricisi kimi torpaqlarımız işğaldan azad edilib, Qarabağda erməni faşizminə son qoyulub. Seçki məntəqələrində gördüyümüz kütləvilik də məhz bunun təsdiqi idi, vətəndaşlarımız Zəfər siyasi kursunun davamında maraqlı olduqlarını hər fürsətdə nümayiş etdirirlər".

Müşfiq Cəfərovun sözlərinə görə, yeni mərhələdə bütün resurslar ölkənin sürətlə inkişafına yönəldiləcək: "İmkanlardan maksimum istifadə olunaraq Azərbaycanın intensiv inkişafı təmin ediləcək. Əminliklə deyə bilərik ki, dövlət başçımız ötən 20 ildə olduğu kimi, bundan sonrakı hakimiyyəti dövründə də xalqın etimadını doğruldacaq. Yeni dövrdə Prezidentin qarşıya qoyduğu bütün hədəflər yüksək səviyyədə icra olunacaq. Azərbaycan qarşıdakı illərdə daha da inkişaf edəcək və dünyanın ən nüfuzlu mövqeyə sahib ölkələrindən birinə çevriləcək".

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

# Təməl möhkəm olanda

Prezident İlham Əliyev andiçmə mərasimindəki geniş nitqində digər sahələrlə yanaşı, xalqımızın həmrəyliyini də əsas uğurlarımızdan biri kimi dəyərləndirmişdir. Bu bir həqiqətdir ki, dövlət başçısı sərkərdə qüdrəti ilə Azərbaycanda yaşayan bütün xalqları və etnik qrupları bir bayraq altında möhtəşəm qüvvə kimi birləşdirə bilmişdir. Bu birlik öncə düşmənlə amansız savaşda, indi isə qlobal quruculuq işlərində aparıcı qüvvəyə çevrilmişdir.

Amma monolit birliyimizə həsəd aparan, onu dağıtmağa çalışan qüvvələr də var. Bunu Prezident belə şərh edir: "Deyə bilərəm ki, bu sahədə çox böyük tarixi nailiyyətlər var, baxmayaraq ki, müxtəlif istiqamətlərdən bu birliyi pozmaq, bizim aramıza girmək, təxribat xarakterli uydurmaları ortaya atmaq cəhdləri kifayət qədər çox olub və olacaq. Çünki bizi istəməyən qüvvələr, bizim gücümüzü qəbul etməyən, Ermənistan üzərində parlaq qələbəmizi həzm edə bilməyən anti-Azərbaycan qüvvələr çalışacaqlar ki, bu amildən istifadə etsinlər. Onların səyləri əbəs olacaq".

Dövlət başçısı belə məsuliyyətli məqamda xalqın Qarabağ və Şərqi Zəngəzurun bərpasına köklənməsini vacib sayır. Sıradan hədəf deyil - azad edilmiş ərazilərə ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkün qayıtmalıdır. Bunun üçün 100-dən çox şəhərin və kəndin baş planları hazırlanmış, təsdiqlənmiş, bir çox şəhər və kəndlərdə isə artıq quruculuq işlərinə start verilmişdir. Artıq yüzlərlə ailə doğma yurd-yuvasına dönmüşdür. Sevindirici hal odur ki, 2026-cı ilin sonunacan Böyük qayıdışın birinci mərhələsi başa çatacaq və 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq.

Sözsüz ki, bu möhtəşəm quruculuq işlərinin arxasında Azərbaycanın iqtisadi gücü və bundan yaranan maddi imkanları durur. Nitqində bu barədə danışan Prezident İlham Əliyev qeyd etmişdir ki, əgər 2003-cü ildə bizim ümumi daxili məhsulumuzun dəyəri 7 milyard dollar idisə, keçən ilin yekunlarına görə bu rəqəm 72 milyard dollar olmuşdur. Nəticədə valyuta ehtiyatlarımız 2003-cü ildəki 1,6 milyard dollardan 69,5 milyard dollara çatmışdır. Uğurlu iqtisadi siyasət həmçinin xarici borcumuzu 6,4 milyard dollaracan azaltmağa imkan vermişdir. Amma bunlar da hələ iqtisadi uğurlarımızın hamısı deyil. Məsələn, əgər 2003-cü ildə ölkə üzrə minimum əməkhaqqı indiki kursla 9 manat idisə, hazırda bu rəqəm 345 manatdır. Minimum pensiya isə 2003-cü ildəki 20 manatdan 280 manata çatmışdır. Orta aylıq pensiya (500 manatdan çox), orta əməkhaqqı (940 manatdan çox) da ötən illərlə müqayisədə xeyli artmışdır.

"8 beynəlxalq aeroportumuz var, 9-cu inşa edilir, Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkələrdən biri olsa da, nəqliyyat mərkəzlərindən birinə çevrilmişik" deyən dövlət başçısı onu da vurğulamışdır ki, təbii qaz almaq üçün Azərbaycana müraciət edən ölkələrin sayı artır. Əvəzində biz heç kimdən heç nə xahiş etmirik: "Mən 20 ildən çoxdur ki, prezidentəm, bu günə qədər heç kimdən heç nə xahiş etməmişəm, çünki buna ehtiyac da olmayıb. Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb - bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik".

Güclü iqtisadiyyat, qüdrətli ordu, daxili sabitlik, xalq-iqtidar birliyi Azərbaycanın uğurlarının əsas amillərindəndir. Və ən azından qarşıdakı 7 ildə də belə olacaq. Çünki təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilib möhkəmləndirilən Azərbaycan adlı dövlət etibarlı əllərdədir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***



# Ermənistan terrorçuları birləşdirən "Yerkrapa"ya meydan verib

## Bununla da rəsmi İrəvan sülh prosesini əngəlləyir

Öz aqibətini düşünməyən Ermənistan sülhə yolu yaxın ikən yenə təxribata əl atdı. Fevralın 12-də saat 13:37-də Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə atəş açıldı.




Nəticədə Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Pərviz Ağakişi oğlu Xəlilzadə yaralandı. Respublika Neyrocərrahiyyə Xəstəxanasında müalicə alan hərbçimiz hadisə vaxtı sərhəd döyüş məntəqəsində xidməti vəzifəsini yerinə yetirdiyini, qarşı tərəfin postunun müşahidəsini apardığını söyləyib: "Bu zaman güllə səsi eşitdim. Bir an içərisində özümü yerdə hiss etdim".

### Ermənistanın hər bir təxribatına sərt tədbirlərlə cavab veriləcək

Təxribatçılar cavablarını gərəkli şəkildə aldılar. Ermənistan ordusunun Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsinin yaxınlığındakı döyüş postu Azərbaycan Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən keçirilən "Qisas" əməliyyatı ilə tamamilə darmadağın edildi. Dövlət Sərhəd Xidmətinin məlumatında qeyd olundu: "Məhv edilmiş döyüş postunun şəxsi heyəti arasında ciddi itkilərin olması barədə məlumatlar mövcuddur. Ermənistan tərəfinin Azərbaycan-Ermənistan şərti dövlət sərhədində əməliyyat şəraitinin gərginləşdirilməsinə yönələn hər bir təxribatına bundan sonra da daha ciddi və qəti tədbirlərlə cavab veriləcəkdir. Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

Ermənistan mənbələri 4 erməni hərbçisinin həlak olduğunu, bir neçəsinin ağır yaralandığını təsdiq etdilər. Məhv edilən təxribatçıların kimliyi də məlum oldu. Onlar "Yerkrapa" terror təşkilatının üzvləri - 1974-cü il təvəllüdlü Eduard Hamletoviç Arutyunyan, 1957-ci il təvəllüdlü Hraçya Talışeviç Ovannisyan, 1982-ci il təvəllüdlü Qaqik Varazdatoviç Manukyan və 1979-cu il təvəllüdlü Arsen Qagikoviç Ambartsumyandır. Təşkilatın başqa bir üzvü - 1988-ci il təvəllüdlü Rostam Baqişeviç Vardanyan isə yaralanıb. Onun vəziyyəti orta ağır qiymətləndirilir.

Adıçəkilən terrorçuların üzvü olduğu "Yerkrapa" Könüllülər Birliyi adlı terrorçu təşkilatı 1993-cü ildə, Qarabağın işğalı zamanı yaradılıb. Azərbaycana qarşı çox cinayətlər törətmiş bu təşkilata hazırda Sasun Mikaelyan adlı terrorçu başçılıq edir.

Sıralarında terrorçuları birləşdirən, Birinci Qarabağ müharibəsindən başlayaraq neçə-neçə azərbaycanlının faciəsinə səbəb olmuş və bütün bunlara görə fəaliyyətinə son qoyulmalı, cinayətkar üzvləri əməllərinə görə cavab verməli ikən "Yerkrapa" təşkilatı yenidən meydana çıxır, terrorçu üzvləri Azərbaycan əsgərinə atəş açır. Həm də Ermənistanın Azərbaycanla şərti dövlət sərhədində. Bu, yenidən qarşıdurma yaratmaq, münasibətləri gərginləşdirmək cəhdidir. Əgər Ermənistan rəhbərliyi sərhəddə gərginliyin olmasını və Azərbaycanla yeni müharibə istəmirdisə, dərhal "Yerkrapa" terror təşkilatının üzvlərini sərhəddən uzaqlaşdırmalı, onları tərksilah etməli idi.

### Azərbaycan isə hər zamankı kimi sülh prosesinə sadiqdir

"Yerkrapa" təşkilatının üzvləri kimi terrorçulara meydan verməklə, onların cinayət əməllərini ört-basdır etməyə çalışmaqla, üstəlik yalan iddialar səsləndirməklə rəsmi İrəvan sülh prosesini əngəlləyir. Azərbaycan isə hər zamankı kimi sülh danışıqlarına sadiqdir.

Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan tərəfinin təxribatına qarşı gördüyü tədbirlərin eskalasiya üçün bəhanə olması ilə bağlı səsləndirdiyi iddiaların tamamilə əsassız olduğu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) şərhində diqqətə çatdırıldı. Qeyd edildi ki, Azərbaycanın hərbi qulluqçusunun yaralanması ilə nəticələnən hərbi təxribatdan sonra Azərbaycan tərəfi erməni hərbi postundan irəli gələn təhlükəni aradan qaldırıb. Bu tədbir sırf cavab tədbiri idi. Şərhdə vurğulandı: "Azərbaycan sülh prosesinə sadiqdir və Ermənistan tərəfini bu istiqamətdə səyləri təhlükə altına qoya biləcək hərbi eskalasiyalardan çəkinməyə çağırır".

Regionda sülh quruculuğu prosesi üçün yeni imkanların yarandığı vaxtda Ermənistanın sülhün bərqərar olunması istiqamətində real addımlar atmaması, gərginliyi artıran təxribatçı əməllərdən əl çəkməməsi son hadisələrə qədər də dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara yaxşı məlum idi. Beynəlxalq hüququn norma və prinsiplərini heçə sayaraq etnik təmizləmə siyasəti həyata keçirmiş, otuz ilə yaxın Azərbaycanın torpaqlarını işğal altında saxlamış, bir milyondan artıq vətəndaşını dədə-baba yurdundan didərgin salmış, 4 minə yaxın azərbaycanlının itkin düşməsinə səbəb olmuş və ərazilərimizdə mina terroru həyata keçirmiş Ermənistan rəhbərliyi hələ də çəkinmədən məkrli siyasət yürütməkdə davam edir. Regionda dayanıqlı sülhün bərqərar olması naminə beynəlxalq təşkilatlar Ermənistan tərəfindən törədilən hərbi cinayətlərə etinasız qalmamalıdırlar. Ermənistan işğalçı, terrorçu, təxribatçı xislətini dəyişmədikcə regionda sülhə, sabitliyə nail olmaq müşkülə çevriləcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Güclü iqtisadiyyat və qüdrətli ordu müstəqil dövlətçiliyin əsasıdır

Məlumdur ki, müharibələrdə qələbənin əsas şərti taktika və ordunun döyüş ruhudur. Amma 44 günlük Vətən müharibəsindəki qələbədə təkcə bu iki şərt deyil, yeni texnologiyaların da döyüşün Azərbaycanın xeyrinə başa çatmasında rolu böyük oldu.

Azərbaycanın Türkiyə və İsraildən aldığı müasir tipli pilotsuz uçuş aparatlarının (PUA) hava zərbələri və kəşfiyyat dəstəyi döyüşlərdə üstünlüyümüzü təmin etdi.

Hərbçilər PUA-lara bəzən "gəzən sursat" deyirlər. Müharibə gedən günlərdə həmin "gəzən sursat"ların düşmənin tanklarını, artilleriya nöqtələrini, istehkamlarını, hava hücumundan müdafiə (HHM) sistemlərini necə məhv etmələrini gördük. Gördük ki, onlar Ermənistan ordusunu necə rəzil hala saldı, "məğlubedilməz" mifini necə darmadağın etdi. Bundan sonra dünyanın müxtəlif səmtlərində baş verən hərbi toqquşmalar da göstərdi ki, qələbə ən çox texnoloji üstünlüklərin gücünə əldə edilir. Bu sahədə zəif olan tərəf digər sahələrdə nə qədər güclü olsa da, məğlubiyyətə məhkumdur.

Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərdə müasir texnoloji əsaslarla şəhərsalmanın həyata keçirilməsi də bu sahədə bir "savaş"dır. "Ağıllı kənd", "ağıllı şəhər", eləcə də "yaşıl zona" layihələri həmin "savaş"da qazanılan qələbədir. Bu amili Prezident İlham Əliyev fevralın 14-də andiçmə mərasimindəki nitqində bir daha təsdiqləmişdir: "Vacib məsələlərdən biri texnoloji inkişafımızdır. Qələbəmizin əsas amili Azərbaycan döyüşçüsüdür. Düşməni məhv edən və bayrağı azad edilmiş torpaqlara sancan insandır, əsgərdir, zabitdir. Ancaq texniki vasitələr az rol oynamır. Biz texniki vasitələr hesabına İkinci Qarabağ müharibəsindən minimum itkilərlə çıxmışıq".

Təcrübə göstərir ki, döyüşlərdə müasir texnologiyalardan düzgün və vaxtında istifadə etmək qələbənin yarısıdır. Bu cür texnologiyaların bir üstünlüyü də odur ki, onlardan dəqiq istifadə zamanı mülki əhaliyə, onun əmlakına ziyan vurulmur, hədəfdə birbaşa düşmənin canlı qüvvəsi, mövqeyi, silah-sursatı olur. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun keçirdiyi antiterror tədbirləri məhz bu cəhətdən xarakterikdir.

Rusiyanın "Nasionalnaya oborona" jurnalının baş redaktoru, obyektiv təhlilləri ilə tanınan hərbi ekspert İqor Korotçenko "Region plyus" jurnalına müsahibəsində Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin istifadə etdiyi fəaliyyətini, müasir sulahların rolunu yüksək qiymətləndirib: "Dünya hələ belə bir vəziyyətlə rastlaşmamışdı ki, bir ordu digər ordu ilə vuruşarkən bu sayda yüksəkdəqiqlikli silahlardan istifadə edilsin. Zərbə uçuş aparatlarından istifadənin miqyasına və intensivliyinə görə bu, dünya tarixində ilk belə hadisədir. Nə ABŞ, nə Rusiya, nə İsrail, nə də hansısa başqa ölkə bu miqyasda pilotsuz zərbə uçuş aparatlarından istifadə etməyib. Pilotsuz uçuş aparatları bu cür münaqişələrdə özünün mübahisəsiz üstünlüyünü sübut edib. Buraya Azərbaycan Ordusu tərəfindən düşmənin canlı qüvvələrinin və hava hücumundan müdafiə vasitələrinin məhv edilməsi və daha sonra zirehli texnikanın, yüksək dərəcədə müdafiə olunan hədəflərin və canlı qüvvənin məhv edilməsi üçün pilotsuz uçuş aparatlarından geniş istifadə taktikasını da əlavə etmək lazımdır".

Mütəxəssislər daha bir məqamı da önə çəkirlər. Aparıcı Qərb mətbuatında, habelə ABŞ-nin Milli Müharibə Kollecinin (National War College) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, onun (Azərbaycan Ordusunun - red.) qarşısında hətta dünyanın aparıcı ölkəsinin ordusu dursaydı belə, heç bir şansı olmayacaqdı. Bu baxımdan Vətən müharibəsində istifadə edilən döyüş taktikasının dünya hərb tarixində yenilik hesab olunması təsadüfi deyil. Çünki Ali Baş Komandanın dediyi kimi, "Biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir" .

Hər bir dövlətin müstəqilliyinin qorunması ordusunun gücünə bağlıdır. Ordunun gücü dövlətin iqtisadiyyatı, iqtisadiyyatın gücü isə ordunun qüdrəti ilə qiymətləndirilir. Bu gün Azərbaycan Ordusunun gücü onun müasur hərbi texnologiyalarla təchiz olunmasındadır. Prezident, Ali Baş Komandan İlham Əliyev andiçmə mərasimində vurğulamışdır: "Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz".

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Ermənilər terrora son qoymalıdırlar

## Əks halda bu, onlara baha başa gələcək

Bir neçə gün bundan əvvəl, daha dəqiq desək, fevralın 12-də Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən açılan atəş nəticəsində azərbaycanlı hərbi qulluqçunun yaralanması Hayastanın təxribatlara son qoymadığını sübut edir.

Əvvəla, atəşkəsin pozulması elə Ermənistan Müdafiə Nazirliyi tərəfindən də təsdiqini tapıb. Sərhədçimizin snayperlə vurulması Ermənistanın növbəti məqsədyönlü təxribatıdır. Xatırladaq ki, oxşar təxribat Tovuz istiqamətində törədilib. Bu isə birbaşa dövlət sərhədinin pozulması deməkdir. Onu da qeyd edək ki, Ermənistanın sərhədlərini Rusiya hərbçiləri qoruyur. Görünür, Ermənistandakı iqtidar nəyin bahasına olursa-olsun, Rusiyanın regionda rolunun azalmasını istəyir. Onları buna Qərb təhrik edir.

Məsələyə diqqətlə baxanda aydın olur ki, bütün bu təxribatlar elə məhz qərbdəkilərin, ilk növbədə Fransanın regionda gərginliyin qalmasında maraqlı olması nəticəsində baş verib. Faktlar da bunu sübut edir. Sərhədçimiz yaralanan gün Avropa İttifaqı təmsilçiliyinin Ermənistandakı rəhbəri Maraqos Zəngilanda idi. Orada Aİ missiyasının haylara dəstəyini nümayiş etdirmək üçün onun regiona yeridilməsindən dəm vururdu. Təbii ki, bu cür açıqlamalar, o cümlədən Fransa generalı da daxil olmaqla, Avropa İttifaqından gələn ayrı-ayrı ünsürlərin binoklla Azərbaycan mövqelərini seyr etmələri hayların kimin yanında yer almalarını açıq şəkildə göstərir, onlar erməniləri bu cür insidentlərə həvəsləndirirlər.

Bu təxribatı törədən Ermənistan tərəfi anlamalıdır ki, indi də, sonra da suverenliyimizə və ərazi bütövlüyümüzə qarşı istənilən təhdidin qarşısı alınır, düşmənə hər zaman layiqli cavab verilir. Azərbaycanın heç bir təxribatı cavabsız qoymadığını ernənilər əvvəlki "Qisas", Sarıbaba və digər əməliyyatları yada salıb özləri üçün nəticə çıxarmalı idilər. Belə olmadığı üçün bir neçə gün bundan öncə Dövlət Sərhəd Xidmətinin (DSX) bölmələri tərəfindən Ermənistan Silahlı Qüvvələrinin fevralın 12-də törətdikləri təxribata cavab olaraq "Qisas" əməliyyatı keçirildi. Əməliyyat nəticəsində əsgərimizə atəş açılan Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsinin yaxınlığındakı döyüş postu tamamilə darmadağın edilib, döyüş mövqeləri susdurulub. Məhv edilmiş döyüş postunun şəxsi heyəti arasında ciddi itkilərin olması barədə məlumatlar var.

Dövlət Sərhəd Xidmətinin (DSX) məlumatında bildirilir ki, beynəlxalq qanunlara əsasən baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ermənistan tərəfinin Azərbaycan-Ermənistan şərti dövlət sərhədində əməliyyat şəraitinin gərginləşdirilməsinə yönələn hər bir təxribata bundan sonra daha ciddi və qəti tədbirlərlə cavab veriləcəkdir.

Ekspertlərin fikrincə, indi Azərbaycan Ordusu şərti sərhədlərdədir, təbii ki, şərti sərhəd qalib ölkənin tutduğu mövqelərdir. Bundan sonra üçtərəfli Bəyanatda nəzərdə tutulmuş bəndlər həyata keçirilməli, yəni sülh müqaviləsi bağlanmalı, delimitasiya və demarkasiya prosesinə strat verilməli və Zəngəzur dəhlizinin açılması ilə bağlı müəyyən tədbirlər görülməlidir. Azərbaycan tərəfindən bu hazırlıqlar gedir, yol tikintisi artıq yekunlaşmaq üzrədir. Ancaq Ermənistan həmişə olduğu kimi, açıq və obyektiv mövqe ortaya qoya bimədiyindən xarici qüvvələrin təsiri ilə terror aktlarına yol verir. Yaxşı olar ki, Ermənistan "odla oynamasın". Bu, Ermənistan hakimiyyəti, Ermənistan silahlı qüvvələri üçün bağışlanılmazdır. Ermənistan terrordan birdəfəlik əl çəkməlidir. Əks halda bu, onlara baha başa gələcək.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# "Qisas" əməliyyatı ermənilərə və onların havadarlarına tutarlı cavabdır

Ermənilərin Zəngilan rayonu istiqamətində törətdikləri təxribata cavab olaraq Dövlət Sərhəd Xidmətinin keçirdiyi "Qisas" əməliyyatı Ermənistan üçün ağır nəticələndi. Bir hərbi qulluqçumuzun yaralanmasına qarşı 4 erməni hərbçi məhv edildi, biri yaralandı. Uğurlu əməliyyat nəticəsində Ermənistan ordusunun postu darmadağın edildi. Azərbaycan Silahlı Qüvvələri isə güclü, qüdrətli və məğlubedilməz olduğunu bütün dünyaya göstərdi.

Görünür ki, ermənilər "dəmir yumruğ"u unutmuşdular. Uğurla başa çatan "Qisas" əməliyyatı zamanı ağır itki verən düşmən 2020-ci ildəki "dəmir yumruğ"un zərbəsini bir daha daddı. Ermənistan çox gözəl bilirdi ki, cəbhədə təxribat törətsə, Azərbaycandan layiqli cavabını alacaq. Bilə-bilə də belə bir təxribat törətdi. Elə ilk addımlardan hiss olundu ki, təxribatın arxasında insan amili deyil, siyasi maraqlar dayanır. Əsas məqsəd dünyada nüfuzu daim artan Azərbaycan haqqında mənfi rəy yaratmaqdır. Yəni İrəvan üçün maraqlı olan nə qədər itki verməsi deyil, baş verən təxribatdan ölkəmiz əleyhinə necə istifadə etməsidir. Odur ki, cəbhədə törətdiyi hərbi təxribatı tez bir zamanda ölkəmiz əleyhinə siyasi təxribata çevirməyə çalışdı. Təxribat törədilən gün Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tələm-tələsik özünü Brüsselə, Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Xidmətinin rəhbəri C.Borelin yanına çatdırdı. Amma erməni nazir nə qədər dəridən-qabıqdan çıxsa da, cəbhədə törətdikləri hərbi təxribatı Azərbaycana qarşı siyasi təxribata çevirə bilmədi. Çünki Fransadan başqa dünya birliyi erməni yalanlarından bezib, artıq onlara inanmır.

Ermənilərin bu təxribatdan ölkəmizə "qarayaxma" kampaniyası aparacağı Ermənistan Xarici İşlər Nazirliyinin açıqlamasından da hiss olundu. Rəsmi İrəvan açıqlamada Azərbaycanı "danışıqları pozmaqda", "sərhəddə eskalasiya yaratmaqda" ittiham etməyə başladı. Ermənistanın bu iddiaları bölgədə heç nəyi dəyişdirməsə də, hiss olunurdu ki, Avropa strukturları "Qisas" əməliyyatını "Azərbaycanın hücumu" olaraq göstərməyə və bundan Bakıya qarşı təzyiq kimi istifadə etməyə cəhd edir. Məhz buna görə Ermənistan məsuliyyətdən yayınmaq üçün Bakının "Qisas" əməliyyatına səbəb olan snayper atəşinin onun iradəsindən kənarda baş verdiyini bildirdi. Gülünc doğuran odur ki, Ermənistan Xarici İşlər Nazirliyi hərbçilərinin günahını təsdiqləməkdənsə, ölkəmizə qarşı şər-böhtanlar yağdırmağa başladı. Belə yerdə ataların: "Utanmasan oynamağa nə var ki!" misalı yada düşür. Amma bu misalın ermənilərə heç bir aidiyyəti yoxdur. Çünki onlarda nə utanan sifət, nə də abır-həya var. Əgər bu insani keyfiyyətlər ermənilərdə olsaydı, nə təxribat törədər, nə də belə sərsəm-sərsəm danışardılar.

Azərbaycanın fevralın 13-də keçirdiyi "Qisas" əməliyyatı ətrafında baş verən hadisələr bir daha onu göstərir ki, Ermənistanı Azərbaycana qarşı təxribat törətməyə sövq edən qara qüvvələr mövcuddur. Belə ki, Ermənistan Müdafiə Nazirliyi bu ərəfədə özünün hərbi arsenalını şaxələndirməyə nail olduğu, 8 ölkədən müasir silahlar almaqla bağlı razılaşmalar əldə etdiyi barədə məlumat yayıb. Rəsmi İrəvan son aylar ərzində təkcə hərbi-texniki yardımla deyil, həm də siyasi dəstəklə himayə olunur. Bu da onu Azərbaycana qarşı təxribatlar törətməyə həvəsləndirir. 44 günlük Vətən müharibəsindəki acı məğlubiyyətini unudur. Özünü güclü hiss etməyə başlayır. Ona görə də əvvəlki işğalçılıq xəyalları ilə yaşaya-yaşaya cəbhədə təxribat törədir. Ertəsi gün isə Azərbaycandan sarsıdıcı zərbə alır. Görünür, məğlub ölkə olduğunu belə uğurla həyata keçirilən "Qisas" əməliyyatları ilə tez-tez Ermənistanın yadına salmaq lazımdır. Yəqin ki, Azərbaycandan aldığı sarsıdıcı zərbə ermənilərə də, onların havadarlarına da yaxşıca dərs olacaq. Ermənistan bir daha görəcək ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsi dövründə, ondan sonrakı uğurla həyata keçirilən əməliyyatlarda onun hərbi arsenalının əksər hissəsini məhv edən Azərbaycan Ordusu ötən 4 ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında özünün hərbi imkanlarını artırıb, daha güclü, daha qüdrətli olub.

Ermənilər təxribat törətdikləri gün - 12 fevral 2024-cü ildə Avropa İttifaqının Azərbaycan Respublikasındakı səfiri Peter Mixalko Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı Aİ-nin Ermənistandakı Monitorinq Missiyasının əldə olunmuş ilkin razılıqlara zidd olan fəaliyyətinin ciddi narahatlıq doğurduğu bir daha diqqətə çatdırılıb. Həmin missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə təbliğat vasitəsi kimi geniş şəkildə sui-istifadə olunduğu qeyd edilib. Missiyanın mahiyyət etibarilə müxtəlif Avropa rəsmilərinin, habelə qeyri-rəsmi nümayəndə heyətlərinin sərhəd bölgələrinə səfərlərinin təşkilinə töhfə verən "binokl diplomatiyası"nın agentinə çevrildiyi Aİ tərəfinin diqqətinə çatdırılıb.

ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller keçirdiyi brifinqdə bildirib ki, Azərbaycan-Ermənistan sərhədində hərbi toqquşmalar barədə məlumatlardan narahatdırlar. Gücdən istifadə danışıqlara xələl gətirir. Davamlı sülhə aparan yeganə yol danışıqlar masası arxasındadır. Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç də Azərbaycan və Ermənistan sərhədində baş vermiş atışmadan narahat olduğunu bildirərək tərəfləri güc tətbiqindən çəkinməyə çağırıb. Bildirib ki, dialoq davamlı sülhün yeganə yoludur. Amma bu məlumatlardan təəssüf doğuran odur ki, hadisəyə münasibət bildirənlər yenə də erməni təxribatını pisləmirlər. Yalnız ümumi sözlərlə kifayətlənir, təxribatçı Ermənistanın əleyhinə bir söz demirlər. Zərərçəkənlə zərərvuranı tərəzinin eyni gözünə qoyurlar. Elə buna görə də həqiqəti görə bilmirlər.

Dövlət Sərhəd Xidmətinin bölmələrinin Ermənistan silahlı qüvvələrinin fevralın 12-də törətdikləri təxribata cavab olaraq keçirdiyi "Qisas" əməliyyatı təkcə işğalçılıq niyyətindən əl çəkməyən Ermənistana deyil, həm də onun arxasında dayanan qara qüvvələrə çox tutarlı cavab oldu. Bu cür qətiyyətli addımı ilə Azərbaycan bütün dünyaya göstərdi ki, şərti dövlət sərhədində əməliyyat şəraitinin gərginləşdirilməsinə yönəldilən bütün təxribatlara layiqli cavab veriləcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ



# Azərbaycan 19 ildir "Azəri"nin sərvətindən bəhrələnir

## Prezident İlham ƏLİYEV: "Bizə sabit neft hasilatı lazımdır"

**Azərbaycan özünün yeni neft strategiyasına start verəndə ölkənin daxilində və xaricində bəzi qüvvələr gələcək nailiyyətlərə bəri başdan kölgə salmaq üçün müxtəlif şayiələr yayırdılar. Bunlardan biri Azərbaycanın guya deyilən qədər neftinin olmaması barədə səslənən qərəzli fikirlər idi. Prezident İlham Əliyev fevralın 7-də keçirilən andiçmə mərasimində bunu təsadüfən xatırlamadı. Çünki ölkəmiz son iki-üç onillikdə bu sahədə misilsiz nailiyyətlər əldə edib və həmin qüvvələrin cavabını zaman özü verib.**

Söz vaxtına çəkər. Azərbaycanı dirçəldən, beynəlxalq enerji "ailə"sinə qovuşduran "Əsrin müqaviləsi"nin salnaməsini vərəqləyəndə 19 il əvvəlin fevralı yada düşür. Məhz həmin vaxt "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsi layihəsi özünün kulminasiya nöqtəsinə çatdı."Azəri" yatağından ilk neft alındı.

"Əsrin müqaviləsi" adını almış AÇG layihəsinin birinci mərhələ sayılan İlkin Neft Layihəsi çərçivəsində "Çıraq"dan artıq 8 il idi neft çıxarılırdı. "Azəri"nin işlənməsi isə növbəti mühüm mərhələni təşkil edirdi. Belə ki, "Azəri" AÇG layihəsi daxilində işlənən ən böyük yataqdır. Əslində, o öz hüdudlarında üç böyük yatağı birləşdirib - Mərkəzi, Qərbi və Şərqi hissələrdən ibarətdir.

"Azəri"nin ilk nefti onun mərkəzi hissəsində quraşdırılmış Hasilat, Qazma və Yaşayış Platformasından alındı. "Mərkəzi Azəri"də hasilat əvvəlcədən qazılmış 10 öncəqazma quyularının birincisindən başlandı. Bu quyular hələ platforma quraşdırılmazdan əvvəl dayaq tavasından qazılmışdı. Həmin üsuldan hasilatı tezləşdirmək üçün istifadə olunur. Bu əməliyyat "Mərkəzi Azəri"də də uğurla həyata keçirildi.

Əlbəttə, "Azəri" yatağının işlənməsi təkcə quyuların qazılması və neftin çıxarılmasından ibarət deyildi. "Azəri" böyük bir layihədir və onun həyata keçirilməsi üçün genişmiqyaslı inşaat işləri görüldü. Bu işlər həm qurudakı obyektlərdə, həm də dənizdə aparıldı. Əvvəla, bütövlükdə "Azəri" yatağı dörd platformanın istismar olunduğu bir dəniz məkanıdır. Onlardan ikisi mərkəzi hissədə quraşdırılıb. Belə ki, "Mərkəzi Azəri" yaxınlığındakı Kompressor və Suvurma Platformasına (KvəSP) körpü vasitəsilə birləşdirilib. Lakin KvəSP burada yerləşməsinə baxmayaraq, yatağın digər hissələrinə də qaz və suvurma əməliyyatları, elektrik təchizatı ilə bağlı xidmətlər göstərir.

2005-ci il fevralın 18-də Prezident İlham Əliyev Xəzərdə, Bakıdan təxminən 100 kilometr şərqdə yerləşən "Mərkəzi Azəri" platformasına gəldi. Burada neft hasilatına başlanmasına həsr olunmuş təntənəli mərasimdə çıxış edərkən dövlətimizin başçısı hadisənin əhəmiyyətini vurğuladı: "Bu gün "Azəri" yatağında ilk neftin çıxarılması bir daha onu göstərir ki, qarşıya qoyulmuş bütün vəzifələr, planlar həyata keçirilir. Bütün çətinliklərə, maneələrə baxmayaraq, çətin geosiyasi vəziyyətdə Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda uğurla işləyibdir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır".

Əməliyyatçı olan bp şirkətinin mütəxəssislərinin sözlərinə görə, "Azəri" hazırda dünyada istismar edilməkdə olan ən böyük yataqlardan biridir. Bu sözləri deməyə yatağa məxsus karbohidrogen ehtiyatlarının həcmi, onun gətirdiyi gəlirlər əsas verir. O zaman, 2005-ci ildə tikintisi başa çatmaqda olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinə məhz "Azəri" yatağından alınan neft vurulmalı idi. "Mərkəzi Azəri"də hasilata başlanması həm də buna görə əlamətdar bir hadisəyə çevrilmişdi.

"Azəri"nin də tikinti işləri bir neçə il davam etmişdi. Nəzərdə tutulduğu vaxtda yataqdan ilkin neftin alınması layihənin uğurla həyata keçirildiyini təsdiqlədi. Daha sonra 2005-2006-cı illərin qovşuğunda "Qərbi Azəri" platforması neft verdi. 2006-cı ilin payızında isə "Şərqi Azəri"dən də hasilata başlandı. Yeri gəlmişkən, qeyd edək ki, AÇG-nin növbəti platformalarından - "Dərinsulu Günəşli"dən 2008-ci ilin aprelində, "Qərbi Çıraq"dan 2014-cü ilin yanvarında hasilat əldə olundu. İndi isə AÇG-nin yenilənmiş sazişi üzrə"Azəri Mərkəzi Şərqi"dən alınacaq neftin yolunu gözləyirik.

"Azəri" neftinin Səngəçal terminalına nəql olunmasına 2005-ci il martın əvvəlində start verildi. Beləliklə, həmin il mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərinə terminaldan ilk neft vuruldu. Bu da böyük bir təntənəyə çevrildi. Tədbirlərdə Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın dövlət başçıları, bir çox ölkədən gəlmiş hörmətli qonaqlar iştirak etdilər.

Xatırladaq ki, AÇG-nin bütün platformaları ölkə daxilində quraşdırılıb. "Azəri" yatağındakı hasilat platformaları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilib. KvəSP-nin göyərtəsi isə Bakının Bibiheybət ərazisindəki tikinti-quraşdırma sahəsində inşa edilib. Bu işlər həyata keçirilməzdən əvvəl həmin obyektlər tamamilə təzədən qurulub.

"Azəri"nin neftini və səmt qazını Xəzərdən Səngəçala çatdırmaq üçün dənizdə ümumi uzunluğu 600 kilometrdən çox olan sualtı borular çəkilib. Səngəçal terminalında bu karbohidrogenləri ilkin emal edib müvafiq kəmərlərə vurmaq üçün isə böyük bir infrastruktur yaradılıb. Həmin qurğuların özünün tikilib araya-ərsəyə çatdırılması digər nəhəng bir layihənin uğurla tamamlanmasının sübutudur.

Bu gün AÇG yataqlar blokundakı bütün qurğular kimi "Azəri" platformaları da ahəngdar işləyir. 2023-cü ildə AÇG-dən stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. İl ərzində ümumi hasilat gündə orta hesabla 363 min barel olub. Bu həcmin 240 min barelini, yəni 66 faizdən çoxunu "Azəri" verib.

"Azəri" nefti çiçəklənən bölgələrimiz, yeni yollar, məktəblər və uşaq bağçaları, idman kompleksləri, iqtisadiyyatımızın şaxələndirilməsi, gələcək nəsillərə töhfə deməkdir.

İndi ölkəmizin neft-qaz sənayesində yeni mərhələ başlanır. Prezident İlham Əliyev andiçmə mərasimində demişdir: "Ənənəvi yanacaq növləri - neft-qaz sahəsində işlər davam etdiriləcək. Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır".

"Azəri" bu dövrdə də töhfələrini əsirgəməyəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Keçən ay ÜDM istehsalı 5 faiz artmışdır

**Ötən ay ölkədə 9 milyard 131,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,0 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,6 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 12,3 faiz artmışdır.

ÜDM istehsalının 41,9 faizi sənaye, 10,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,8 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,8 faizi informasiya və rabitə, 1,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 17,8 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,6 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 896,7 manata bərabər olmuşdur.

## Yanvar ayında ölkə üzrə 5,2 milyard manatlıq sənaye məhsulları istehsal edilib

**Yanvar ayında ölkə üzrə 5,2 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 2,5 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 8,9 faiz artmışdır.**



Dövlət Statistika Komitəsi xəbər verir ki, sənaye məhsullarının 66,6 faizi mədənçıxarma sektorunda, 27,1 faizi emal sektorunda, 5,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 8,3 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 4,2 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 2,8 dəfə, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 2,1 dəfə, kompüter, elektron və optik məhsulların istehsalı 67,9 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 54,1 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 48,7 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 41,0 faiz, mebel istehsalı 40,5 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 35,0 faiz, tikinti materiallarının istehsalı 34,5 faiz, tütün məmulatlarının istehsalı 28,3 faiz, geyim istehsalı 27,5 faiz, elektrik avadanlıqlarının istehsalı 24,9 faiz, hazır metal məmulatlarının istehsalı 18,3 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 18,0 faiz, qida məhsullarının istehsalı 8,7 faiz, içkilərin istehsalı 6,3 faiz artmış, poliqrafiya məhsullarının istehsalı 0,8 faiz, kağız və karton istehsalı 1,3 faiz, kimya sənayesi məhsullarının istehsalı 1,4 faiz, neft məhsullarının istehsalı 9,6 faiz, sair sənaye məhsullarının istehsalı 13,7 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 48,4 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 66,5 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 11,0 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 0,2 faiz artmışdır.

## Əsas kapitala 1,5 milyard manatdan çox vəsait yönəldilmişdir

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar ayında əsas kapitala 1 milyard 553,0 milyon manat məbləğində, yaxud əvvəlki ilin yanvar ayı ilə müqayisədə 37,4 faiz çox vəsait yönəldilmişdir.**



Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 44,5 faiz, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 34,1 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 707,3 milyon manatı və ya 45,5 faizi məhsul istehsalı sahələrinə, 782,6 milyon manatı (50,4 faizi) xidmət sahələrinə, 63,1 milyon manatı (4,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 1 milyard 284,3 milyon manatını və ya 82,7 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 1167,7 milyon manatı və ya 75,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

## Əlilliyi olan şəxslərə ötən ay 9,1 min reabilitasiya vasitəsi verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar ayında əlilliyi olan şəxslərə 9,1 min reabilitasiya vasitəsi verilib.**

Onlardan 612-si təkərli oturacaq (o cümlədən 3-ü mühərrikli təkərli oturacaq), 190-ı aşağı və yuxarı ətraf, habelə 235-i eşitmə aparatı, 227-si qoltuqaltı və dirsəkaltı ağac olub. Həmçinin əlilliyi olan şəxslərə 247 cüt protez ayaqqabı, 454 cüt ortopedik ayaqqabı, 7 korset və s. reabilitasiya vasitələri təqdim olunub.

Yanvar ayında ümumilikdə 1,3 min nəfər əlilliyi olan şəxs reabilitasiya vasitələri ilə təmin edilib.

# "Şah dili"ndən "qartal dimdiyi"nəcən

## Abşeron Milli Parkı yarımadanın flora və faunasının etibarlı "keşikçi"sidir



**Ötən yaxın günlər Bakıda havaların mülayim keçməsi istər-istəməz insanın beynində sual yaradırdı: görəsən, paytaxta yaxın ərazidə bir neçə saatlıq da olsa harda dincəlmək, harda rahat nəfəs almaq olar ki, yorğunluğumuzu unuda biləkq?**

Abşeron Milli Parkına bələd olanların bu suala cavabı hazırdır: dənizdən gələn və bir az da bataqlıq qoxusu verən bu park dincəlmək üçün ən yaxşı seçimdir. Düz sözə nə demək olar? Bir balaca Muğan çöllərinə bənzəyən, yarımsəhra örtüyü ilə diqqət çəkən və insanın iliyinə işləyən qamış səsli külək vıyıltısında düşüncələrə dalmağın öz ləzzəti var. Abşeron Milli Parkındakı açıq məkandan görünən üfüq də insanı özünə çəkir.

Əslində, parkın ərazisində əvvəllər Abşeron yasaqlığı mövcud olub. Bu barədə vikipediada belə yazılıb: "Dövlət yasaqlığı Bakı Şəhər Soveti ərazisində, Abşeron yarımadasında, Şah Dilində idi. Sahəsi 800 hektar olub. Su quşlarını və Xəzər suitiləri yatağını qorumaq, həmçinin Xərə Zirə adasından buraya gətirilən ceyranların sayını artırmaq məqsədi ilə 1969-cu ildə təşkil edilmişdir".

Abşeron yarımadasının cənub-şərq qurtaracağında 783 hektarlıq sahədə yerləşən Abşeron Milli Parkı Prezident İlham Əliyevin 8 fevral 2005-ci il tarixli sərəncamı ilə yaradılıb. Əsas məqsəd ətraf mühitin mühafizəsi və ondan səmərəli istifadə edilməsi, eləcə də nəsli kəsilməkdə olan nadir flora və fauna növlərinin - Xəzər suitisi, ceyran, kəkilli dalğıc, gümüşü qağayı, yaşılbaş ördək və s. canlıların qorunub saxlanması olub. Ekoturizmin inkişaf etdirilməsi, turizm və istirahət zonalarının yaradılması, ekoloji monitorinqlərin keçirilməsi və əhalinin ekoloji cəhətdən maarifləndirilməsini təmin etmək kimi məsələlərin həlli istiqamətində resallaşacaq layihələr də Abşeron Milli Parkının yaradılmasında rol oynayıb.

Elə bu yerdə Milli Parkdakı zəngin heyvanat aləmindən qısa da olsa söz açaq. Buradakı quşlardan gümüşü qağayı, fısıldayan qu quşu, qırmızıbaş qaz, bizquyruq ördək, yaşılbaş ördək, ağgöz qaraördək, kəkilli dalğıc, böyük ağ vağ, qumluq cüllütü, qaşqaldaq, bataqlıq belibağlısı, dəniz çovdarcısının hər birinin öz nəğməsi, öz əhvalı var. Yaşıl budaqlar arasında ömür sürən bu quşların səsi, uçması - bir ayrı mənzərədir. Onların eyni vaxtda səs çıxararaq sanki hansısa bir təhlükəni bir-birinə xəbər verirmiş kimi anındaca uçmaları isə möcüzədir.

Parkda məməli heyvan növlərindən olan ceyran, canavar, çaqqal, çöl pişiyi, yenot, oxlu kirpi, tülkü, porsuq, dovşan, Xəzərin sularında suiti və həmçinin müxtəlif növ balıqlar məskunlaşıb. Bu yerlərin çoxsaylı "sakin"lərindən olan Xəzər suitisi pərayaqlıların yeganə nümayəndəsidir. O, dünya okeanlarının ən kiçik suitisi kimi "Ginnesin rekordlar kitabı"na daxil edilib.

Abşeron Milli Parkına bir çox halda tanıtmaq üçün Azərbaycan xəritəsindəki "qartalın dimdiyi" də deyirlər. Amma rəvayətə görə, əvvəllər buraya yüksək mənsəbli əyanlar, o cümlədən şahlar (xanlar) ova gələrmiş. Ona görə də buranı yerli əhali o vaxtlar "Şah dili" adlandırıb.

Bu günlər Abşeron Milli Parkının 19 yaşı tamam oldu. Ötən dövrdə turizm və gəzinti məqsədi ilə parkı ziyarət edənlərin sayı xeyli artıb. Çünki parka bir dəfə gələn yenə də yolunu buradan salmaq istəyir. Bu da ondan irəli gəlir ki, digər milli parklarımız kimi "qartal dimdiyi" də əvəzolunmaz təbiət incisidir, gözoxşayan ərazidir. İstər xarici turistlər, istərsə də yerli sakinlər bu ərazini həvəslə ziyarət edir, füsunkar görüntülərdən zövq alır, təbiətlə birbaşa təmas qururlar.

Parkın yaradılmasının 19 illiyi ilə əlaqədar burada "Gələcəyimizin 5T gündəliyi" adlı tədbir keçirilib. Tədbir maarifləndirici xarakter daşıyıb. "Tullantını azalt", "Təkrar istifadə et", "Təkrar emal et", "Ting ək", "Təbiətə dost ol!" devizlərinin birləşməsindən yaranan 5T gündəliyinin "Yaşıl dünya naminə həmrəylik ili"ndə təşkil olunmasında məqsəd həm də iqlim dəyişikliyinə təsir göstərən antropogen amillərin azaldılmasına yönələn COP29 kimi vacib beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi ilə bağlıdır. Məktəblilərin iştirakı ilə keçirilən tədbirdə "Təbiətə dost ol!" devizi altında Azərbaycan Fotoqraflar Birliyinin təmsilçisi, ölkəmizin təbiət guşələrini lentə köçürən tanınmış fotoqraf Aydın Mehdiyevin fərdi fotosərgisi açılıb. "Tullantını azalt" və "Təkrar emal et" çağırışları Xəzər Universiteti Ətraf Mühit Mərkəzinin direktoru, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın üzvü Rövşən Abbasovun təqdimatında olub. "Gələcəyimizin 5T gündəliyi" çərçivəsində "Ting ək" sloqanının təbiqi isə Abşeron Milli Parkı tərəfindən "yasilgelecek.az" platforması üzərindən 19 ədəd ting əkilməsi ilə qeyd edilib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# Məhəmməd Füzuli -530

*Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,*
*Surəti-halım görən, surət xəyal eylər məni.*



**Klassik irsimiz**

# Qəlb şairinin poetik möcüzəsi




**Mövlana Məhəmməd Füzuli XVI yüzillik Azərbaycan ədəbiyyatının yetirdiyi elə nadir şəxsiyyətlərdəndir ki, onun yaradıcılığı təkcə öz dövründə məşhur olmaqla qalmamış, həm də 500 ildən bəri türk dilinin anlaşıldığı bütün məkanlarda lirik-fəlsəfi poeziyanın irəliyə doğru inkişafına öz möhtəşəm təsirini göstərmişdir. Füzuli insan həyatının məişət qayğılarını bu həyatın ülvi iç dünyasına transfer etməyin böyük ustadıdır.**

Məşhur ingilis şərqşünası Elias Con Uilkinson Gibbin (1857-1901) "Qəlb şairi" adlandırdığı Məhəmməd Süleyman oğlu Füzuli Bağdadi 1494-cü ildə, o zaman növbə ilə Osmanlıların və Səfəvilərin hakimiyyəti altına keçən İraqi-Ərəbin Kərbəla şəhərində azərbaycanlı din xadiminin ailəsində dünyaya gəlmişdir.

Müxtəlif hökmdarlar tərəfindən dəvətlər alsa da, Füzuli öz böyük sələfi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi kimi saraylardan uzaq durmuş və bu əyilməzliyi ilə həmişə fəxr etmişdir.

Hələ çox gənc yaşlarından bədii sözünün şöhrəti dünyanı tutmuş Füzuli bu erkən şöhrətdən heç də arxayınlaşmamış, ömrünün bir neçə ilini zəmanəsindəki dünyəvi və ruhani elmlərin öyrənilməsinə sərf etmiş və "elmsiz şeirin əsassız divar olduğu" qənaətinə gəlmişdir.

Füzuli bütün ömrünü İraqi-Ərəbin Bağdad, Hillə, Kərbəla, Nəcəf kimi şəhərlərində keçirmiş, bu yerlərdəki müqəddəs məkanlarda, xüsusən İmam Hüseyn məqbərəsində kitabxanaçı, çıraqsuz kimi şərəfli vəzifələrdə qulluq etməklə öz yaşayışını təmin etmişdir. Ömrünün ahıl çağlarında Osmanlı hökuməti tərəfindən kəsilmiş doqquz axça təqaüdü ala bilməyən Füzuli bu hadisəni kəskin sosial satira örnəyi olan "Şikayətnamə" əsərində yüksək obrazlılıqla qələmə almışdır. Fəzli adlı bir oğlu olmuş və onun da bir neçə şeiri bizə gəlib çatmışdır.

Bəzi şeirlərindən aydın olduğu kimi, Hindistana və Ruma (Türkiyəyə) səfər etmək istəyən Füzuli bu arzularına qovuşa bilmədiyini təəssüflə izhar etmişdir. Şair 1556-cı ildə, 62 yaşında ikən Bağdadda baş vermiş taun epidemiyası zamanı xəstələnərək bu fani dünyadan köç etmişdir.

Klassik Azərbaycan və ümumilikdə Yaxın və Orta Şərq ədəbiyyatlarında məhəbbət mövzusunda yazılmış ən şah əsərlərdən biri sayılan "Leyli və Məcnun" poemasını Məhəmməd Füzuli 1537-ci ildə qələmə alaraq Osmanlı sultanı Süleyman Qanuniyə (1520-1566) ithaf etmişdir. Əsərin məzmunu qədim ərəb məhəbbət əfsanəsindən götürülsə də, bu mövzuda ilk poemanı dahi Azərbaycan şairi Nizami Gəncəvi (1141-1209) 1188-ci ildə qələmə almışdır. Poemanın giriş hissəsindən aydın olur ki, əsərin yazılmasını Füzulidən Bağdadda qonaq olan türk (Osmanlı) şairləri xahiş etmiş, o isə qəm və kədərlə dolu olan, sonunda iki nakam gəncin faciəsi ilə bitən bu əhvalatı yazmaqdan hətta ustadı Nizaminin də şikayət etdiyini göstərərək, imtina etmək istəmiş, ancaq son məqamda razılığını vermişdir.

Poemadakı əsas əhvalatlar, xalq nağıllarında və dastanlarında olduğu kimi, qəhrəmanın nəzir-niyazla doğulmasının təsviri ilə başlayır. Əsərin qəhrəmanı Qeys on yaşına çatdıqda atası onu məktəbə qoyur. Qızlarla oğlanların birgə oxuduğu bu məktəbdə Qeys Leyli adlı bir gözələ aşiq olur və qız da onun məhəbbətinə cavab verir. Ancaq Orta əsrlər cəmiyyətində bu cür sevgilər qəbul olunmadığından gənc aşiqlər tezliklə ayrılmalı olurlar. Leyli ev dustağına çevrilir. Qeys isə cəmiyyətə etirazını insanlardan uzaqlaşmaq ilə ifadə edir və buna görə də "Məcnun", yəni dəli adlandırılır.

Nizamidən sonra bu mövzuda poema yazan şairlər bu dahi azərbaycanlının ədəbi təsirindən kənara çıxa bilməsələr də, yalnız Füzuli öz poetik üslubuna uyğun olan orijinal bir əsər yaratmağa nail olmuşdur. Mövzunun özünün tələbi ilə Füzuli poemasında epiklikdən daha çox lirik ovqat üstünlük təşkil edir. Poemaya əlavə edilmiş lirik şeir parçaları bu ovqatı daha da gücləndirir.

Poemada təsvirçilikdən daha çox, qəhrəmanların psixoloji durumunun təqdiminə üstünlük verən sənətkar onların faciəsində əsas günahkar kimi dövrün, ictimai mühitin yetkin olmamasını görür. Böyük Şekspirin "dünyada ən qəmli dastan" adlandırdığı "Romeo və Cülyetta" kimi, Füzulinin "Leyli və Məcnun"u da dünya ədəbiyyatlarında insan məhəbbətinə qoyulan ən böyük bədii söz abidələrindən biridir.

Əsər bütövlükdə Sofi Huri tərəfindən ingilis dilinə tərcümə edilmişdir.

Azərbaycan füzulişünaslığının tarixi şairin yaşadığı illərdən başlanır. Şairin həmyerlisi olan ədəbiyyatşünas-şair Əhdi Bağdadi öz təzkirəsində Füzulinin əsərlərindən örnəklər vermiş və onun yaradıcılığını yüksək qiymətləndirmişdir. Orta əsr təzkirələrinin əksəriyyətində Füzulinin adı hörmətlə çəkilir.

Müasir mənada elmi füzulişünaslıq Azərbaycanda XIX-XX əsrlərdə formalaşmağa başlamışdır. İlk dəfə böyük Azərbaycan ədibi və filosofu Mirzə Fətəli Axundzadə Məhəmməd Füzuli yaradıcılığına elmi qiymət verməyə çalışmışdır. Ədəbiyyatşünas-alim Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" (1925) adlı fundamental əsərində Füzuliyə böyük bir fəsil ayırmışdır. XX əsrin əvvəllərində azərbaycanlı tədqiqatçılardan Abdulla Sur, Salman Mümtaz, Yusif Vəzir Çəmənzəminli, Əmin Abid, Bəkir Çobanzadə kimi ədəbiyyatşünaslar da Füzuli yaradıcılğından bəhs etmişlər.

Sovet dövründə də Azərbaycanda Füzuli araşdırmaları davam etmiş, Mir Cəlal Paşayev, Həmid Araslı, Mirzağa Quluzadə, Məmməd Cəfər Cəfərov, Azadə Rüstəmova, Sabir Əliyev, Əlyar Səfərli, Xəlil Yusifli kimi görkəmli alimlər elmi füzulişünaslığı zənginləşdirmişlər. Mir Cəlalın "Füzuli sənətkarlığı", Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli", Mirzağa Quluzadənin "Füzulinin lirikası", Məmməd Cəfər Cəfərovun "Füzuli sevir", Azadə Rüstəmovanın "Füzulinin "Leyli və Məcnun" poeması" kimi fundamental tədqiqatları bu gün də füzulişünaslığın inkişaf istiqamətlərini müəyyənləşdirən əsərlər kimi dəyərini qoruyub saxlayır.



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə 1994-cü ildə Məhəmməd Füzulinin 500 illik yubileyi dünya miqyasında keçirildi. Bu tədbir Azərbaycanda füzulişünaslığın yeni vüsət alması üçün güclü stimul rolunu oynadı. Sovet ideologiyasının qadağası üzündən uzun onilliklər boyu işıq üzü görməyən "Hədiqətüs-süəda" əsəri çap olundu, böyük şairin altıcildlik külliyyatı kütləvi tirajla nəşr edildi, Bakıda, Ankarada, Moskvada, Bağdadda, Təbrizdə Məhəmməd Füzuliyə həsr edilmiş beynəlxalq elmi konfranslar baş tutdu.

Son illərdə Azərbaycan füzulişünaslığının tarixi professor Gülşən Əliyeva-Kəngərli tərəfindən araşdırılaraq monoqrafik tədqiqatın obyekti olmuşdur.

Böyük Azərbaycan şairi Məhəmməd Füzuli bir çox türk xalqı, xüsusən Türkiyə, Özbəkistan, Türkmənistan türkləri tərəfindən doğma şair kimi qəbul edilir və sevilir. Bununla yanaşı, Qərbi Avropa ölkələrində və Rusiyada da Füzuli irsinin tərcüməsinə və tədqiqinə maraq özünü göstərməkdədir. Dünya füzulişünaslığında ingilis şərqşünası E.C.V.Gibbin adı xüsusi hörmətlə çəkilir, çünki məhz bu alim bilavasitə Azərbaycan şairinin əsərlərinə söykənməklə onun haqqında fikir söyləmiş və ümumilikdə Füzuli irsini çox yüksək qiymətləndirmişdir. Füzuli əsərlərindəki dərin lirizmi xüsusi vurğulayan Gibb bu səbəbdən onu "Qəlb şairi" adlandırmışdır. Bir sıra alimlərin fikrincə, Gibbdən öncə Füzuli haqqında mülahizə yürüdən Avropa şərqşünasları birbaşa onun əsərlərinə deyil, başqa qaynaqlara da istinad etmişdilər.

İtalyan alimi Alessio Bombaçi də Füzuli yaradıcılığının, xüsusən onun ölməz "Leyli və Məcnun" poemasının görkəmli tədqiqatçılarından biri kimi tanınır.

İngilis şərqşünası Çarlz Riyonun tərtib etdiyi kataloqlarda Füzuli əsərləri əlyazmalarının təsviri ilə yanaşı, rus alimləri Y.Bertelsin, A.Krımskinin, İ.Kraçkovskinin və başqalarının da Füzuliyə dair araşdırmaları vardır.

Azərbaycandan sonra Füzuli irsinə ən böyük marağın qardaş Türkiyədə olması təbiidir. Bu ölkədəki böyük füzulişünaslardan Müəllim Nacinin, Məhməd Fuad Köprülünün, Abdulqadir Qaraxanın, Həsibə Mazıoğlunun, Əli Nihad Tərlanın, Abdulbaqi Gölpınarlının, Əhməd Kabaklının, Cəmil Yenərin və başqalarının adlarını çəkmək olar. Eləcə də türk şairi Sofi Hurinin Füzulinin "Leyli və Məcnun" poemasını bütövlükdə ingilis dilinə çevirməsi  Qərb tədqiqatçılarının Füzuli irsi ilə daha yaxından tanış olmaları üçün stimul vermişdir.

Nəhayət, üçdilli şair kimi Füzuli irsinə ərəb alimlərinin də maraq göstərdiyi qeyd edilməlidir. Bu baxımdan Misir alimləri Hüseyn Mucib əl-Misrinin, Safsafinin və İraq alimi Hüseyn Əli Məhfuzun tədqiqatları maraq doğurur. Ərəb dilində yazdığı əsərlərlə yanaşı, Füzulinin türk və fars dillərində qələmə aldığı əsərlər də ərəb alimlərinin diqqətini çəkmiş, bir sıra örnəklər isə ərəb dilinə çevrilmiş və nəşr edilmişdir.

Azərbaycanda Füzuli irsinə maraq şairin sağlığından, hətta gənclik illərindən başlayaraq bu günə qədər yüksələn xətlə artmaqdadır. Respublikanın bölgələrindən birinə Füzulinin adı verilmiş, onun adına küçələr, meydanlar salınmış, möhtəşəm heykəli ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Məhəmməd Füzulinin adı verilmişdir. Füzulinin "Türk divanı"nın Bakı nüsxəsi Əlyazmalar İnstitutunun ən qiymətli əsərlərindən biri kimi UNESCO-nun Dünya yaddaşı reyestrinə daxil edilmişdir.

2013-cü ildə Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda dahi şair və mütəfəkkir Məhəmməd Füzuli irsini daha dərindən öyrənmək üçün AMEA-nın prezidenti, institutun direktoru, akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Füzulişünaslıq şöbəsi təşkil edilmişdir.

Dahi Nizami Gəncəvi ilə yanaşı, Azərbaycanın dünyaşöhrətli klassik sənətkarlarından biri olan Məhəmməd Füzuli xalqımızın milli sərvəti kimi dəyərləndirildiyindən, bu dahi azərbaycanlının ölməz irsinin bütün dünyada tanıdılması üçün dövlət qayğısının əsirgənilməyəcəyi şübhəsizdir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin şairin 530 illik yubileyinin keçirilməsi haqqında verdiyi sərəncam bu qayğının bariz sübutudur.

***Teymur KƏRİMLİ,***
***akademik***

## QƏZƏLLƏR

Gərçi, ey dil, yar üçün yüz verdi yüz möhnət sana,
Zərrəcə qət'i-məhəbbət etmədin, rəhmət sana!

Saxlama nəqdi-qəmi-eşqini, ey can, zahir et
Kim, verim həbsi-bədəndən çıxmağa rüxsət sana.

Çareyi-behbudimi sordum müalicdən, dedi:
Dərd, dərdi-eşqdir, mümkün degil sihhət sana.

Tutaram yarın qiyamətdə, həbibim, damənin,
Məstsən qəflət şərabından, bu gün möhlət sana.

Eşq əhlin atəşi-hicranə eylərsən kəbab,
Dönə-dönə imtəhan etdim, budur adət sana.

İncidir naləm səni, vəh nola gər bir tiğ ilə
Çeşmi-cəlladın edə ehsan mana, minnət sana.

Səndə dün gördüm, Füzuli, meyli-mehrabü nəmaz,
Tərki-eşq etməkmi istərsən, nədir niyyət sana?

❖ ❖ ❖

Can çıxır təndən, könül zikri-ləbi-yar eyləgəc,
Tən bulur can yengidən, ol ləfzi təkrar eyləgəc.

Qılma, ey əfğan, gözün bidar, məsti-xab ikən,
Olmaya bir fitnə peyda ola, bidar eyləgəc.

Söhbətimdən ar edib, ey gül, məni tərk etmə kim,
Gül olur əfsürdə tərki-söhbəti-xar eyləgəc.

Varımı fikri-dəhanınla yox etdim kim, qəza
Böylə əmr etmiş mana, yoxdan məni var eyləgəc.

Ərzi-rüxsar et bu gün, ey məh, güm olsun göydə gün,
Öylə kim, əncüm olur, gün ərzi-rüxsar eyləgəc.

Hər zəban bir tiğdir guya Züleyxa qətlinə,
Yusifi almaqda əhli-eşq bazar eyləgəc.

Naleyi-zarım, Füzuli, xoş gəlir ol gülrüxə,
Açılır gül könlü, bülbül naleyi-zar eyləgəc.

❖ ❖ ❖

Kimsədə rüxsarına taqəti-nəzzarə yox,
Aşiqi öldürdü şövq, bir nəzərə çarə yox.

Bağrı bütünlər mənə tə'nə edərlər müdam,
Halımı şərh etməyə bir cigəri parə yox.

Yığdı mənim başıma dəhr qəmin, neyləsin,
Badiyeyi-eşqdə mən kimi avarə yox.

Dəhrdə həmta sənə var, yeri yox gər desəm,
Var gözəl çox, vəli sən kimi xunxarə yox.

Gözdə gəzib cizginir qətreyi-əşkim müdam,
Qətreyi-əşkim kimi çərxdə səyyarə yox.

Çak görüb köksümü, qılma əlacım, təbib,
Zaye olur mərhəmin, məndə bitər yarə yox.

Zarlığım eşqdən var, Füzuli, vəli,
Ol məhi-bimehrdən rəhm məni-zarə yox.

❖ ❖ ❖

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?

Qəmu bimarinə canan dəvayi-dərd edər ehsan.
Neçin qılmaz mənə dərman, məni bimar sanmazmı?

Qəmim pünhan tutardım mən, dedilər yarə qıl rövşən
Desəm, ol bivəfa bilməm, inanarmı, inanmazmı?

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım
Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?

Güli-rüxsarinə qarşu gözümdən qanlı axar su,
Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?

Degildim mən sənə mail, sən etdin əqlimi zail,
Mənə tən eyləyən qafil səni görcək utanmazmı?

Füzuli rindü şeydadır, həmişə xəlqə rüsvadır,
Sorun kim, bu nə sevdadır, bu sevdadan usanmazmı?

❖ ❖ ❖

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti-halım görən, surət xəyal eylər məni.

Mehr salmazsan mənə, rəhm eyləməzsən bunca kim,
Sayə tək sevdayi-zülfün payimal eylər məni.

Zəfi-tale, manei-tovfiq olur hər necə kim,
İltifatın arizməndi-visal eylər məni.

Mən gəda, sən şahə yar olmaq yox, əmma neyləyim,
Arizi sərgəşteyi-fikri-məhal eylər məni.

Tiri-qəmzən atma kim, bağrım dələr, qanım tökər.
İqdi-zülfün açma kim, aşüftəhal eylər məni.

Dəhr vəqf etmiş məni növrəs cavanlar eşqinə,
Hər yetən məhvəş əsiri-xəttü-xal eylər məni.

Ey Füzuli, qılmazam tərki-təriqi-eşq kim,
Bu fəzilət daxili-əhli-kəmal eylər məni.

# Azərbaycan nümayəndə heyəti VI Dünya Etnosport Forumunda iştirak edir

Gənclər və idman naziri Fərid Qayıbovun rəhbərliyi altında Azərbaycan nümayəndə heyəti Türkiyənin Antalya şəhərində keçirilən VI Dünya Etnosport Forumunda iştirak edir.




Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, "Ənənəvi idman növlərinin dirçəlişi" devizi altında baş tutan foruma 75 ölkədən nazirlər, federasiya nümayəndələri, tədqiqatçılar və alimlər qatılıblar.

Beynəlxalq Etnosport Konfederasiyasının prezidenti Nəcməddin Bilal Ərdoğan forumun açılışında çıxış edərək panel iştirakçılarına uğurlar arzulayıb.

Daha sonra forum panel iclasları ilə işinə davam edib. Nazir Fərid Qayıbov panel iclaslarında müzakirələrə qatılıb. Paneldə ənənəvi idman növlərinin gələcəyi, etnosportun beynəlxalq əməkdaşlığa verdiyi töhfə, maliyyə resursları, media strategiyaları, ənənəvi idman və oyunlar üzrə mükafatların geniş təbliği və digər mühüm mövzular müzakirə olunur.

F.Qayıbov forum çərçivəsində Dünya Etnosport Konfederasiyasının prezidenti Nəcməddin Bilal Ərdoğanla, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumunun prezidenti Taha Ayhanla və bir neçə ölkənin nazirləri ilə ikitərəfli görüşlər keçirib.

# 30 ildən sonra Zəngilanda ilk toy





Zəngilanın Ağalı kəndində 30 ildən sonra ilk dəfə toy mərasimi təşkil olunub.





Bəyin atası Baloğlan İsmayılov bu xoş gündə təəssüratlarını AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşərək deyib: "Bu günləri çoxdan arzulayırdıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Müzəffər Ali Baş Komandanımız, qəhrəman ordumuz sayəsində bu günləri yaşayırıq. Həsrətini çox çəkmişdik. Bu, bizim arzularımız idi, onlar çin oldu. Şükürlər olsun ki, öz kəndimizdə toy edirik. Qarabağ torpağına toy yaraşır, "Cəngi" yaraşır. Bəyimiz də, mən də döyüşçü olmuşuq. İkimizin də arzusu olub ki, bu torpaqlarda yaşayaq. İndi o arzumuz gerçəkləşib".

Qeyd edək ki, dövlətimiz tərəfindən yenidən qurulan Ağalıda 871 sakin yaşayır.



# Revanşistlər etirazlara başlayırlar

Son günlərdə Hayastanda narazılıq və qarşıdurmanın daha da yüksəlməsi, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin bir qədər də kəskinləşməsi müşahidə olunur.



Müxalifət qarşıdakı günlərdə planlaşdırdığı aksiyalarla Baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmağı hədəfləyir. Müxalifətçilər etirazlarına əsas kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. Onlar baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

Ümumiyyətlə, 2018-ci il inqilabından sonra Hayastanda xalq arasında nüfuzunu itirən Sarkisyan-Koçaryan koalisiyasına havadarlıq edənlər artıq başqa adlar üzərində axtarışa başlayıblar. Qatı rusiyayönlü siyasi qüvvələrin yaratdığı "Birgə" alternativ ictimai-siyasi hərəkatı hökuməti devirmək məqsədilə kütləvi etirazlara başlayacağını açıqlayıb.

Hərəkatın koordinatoru - keçmiş baş nazir və birinci Qarabağ müharibəsi dövrünün məşhur cəlladı Vazgen Sarkisyanın qardaşı Aram Sarkisyan İrəvanda keçirdiyi mətbuat konfransında bildirib ki, fevralın 20-də hərəkat fəalları şəhərin Azadlıq meydanında mitinq keçirəcək.

Rusiyayönlü lider bütün siyasi qüvvələri Nikol Paşinyanın istefasını tələb edən "Birgə" hərəkatını dəstəkləməyə çağırıb: "Hazırkı hökumət Qarabağı itirdi. Əməllərinə görə cavab verməlidir. Hökumətin istefası üçün 100 səbəbi bir kitabda toplamışıq. Mitinq zamanı xalqa paylayacağıq".

Keçmiş baş nazir bildirib ki, Paşinyan hökumətin yükünü daşıya bilmir və ona görə də istefa verməlidir: "Biz onu bu yükdən azad etməyə hazırıq. Paşinyan vaxtından əvvəl istefa versə, yaxşı olar, əks halda, öhdəliklərini yerinə yetirmək daha çətin olacaq. Parlamentdə təmsil olunan 35 müxalif deputatın hər birinə mitinqə fərdi dəvətnamə göndərilib".

Son günlərdə İrəvanda xalqı Paşinyana qarşı qaldıranlardan, səsləndirdiyi fikirlərlə, açıqlamaları ilə yerli medianın diqqət mərkəzində yer alanlardan biri də sabiq baş nazir Qrant Baqratyandır. O da Hayastanı növbəti vətəndaş qarşıdurmasına sürükləməyə çalışır. Məqsəd isə hakimiyyətlə xalq arasında uçurumu daha da dərinləşdirməkdir. Baqratyan erməni diasporunun siyasətdəki ən ciddi fiqurlarından biridir. O, sülh prosesinin və Ermənistan - Türkiyə əlaqələrinin bərpasına qarşı sərt müxalif mövqe ortaya qoyur. Görünür ki, erməni diasporu Paşinyanı sülh prosesindən yayındırmaq istəyir və erməni baş nazirin Münxendə olduğu zaman mitinqlərin başlaması təsadüfi deyil. Şübhəsiz ki, bu, diasporun Paşinyan hökumətinə təzyiq metodudur.

Sosial şəbəkələrdə paylaşımlara görə, müxalifət düşərgəsində həbslərin aparılması planlaşdırılır və qeyd olunur ki, kütləvi etiraz aksiyalarının qarşısını almaq üçün hakimiyyət indidən xüsusi plan hazırlayıb. Buraya müxalifət fəallarına qarşı güc tətbiq edilməsindən tutmuş, onların mitinq keçiriləcək ünvana daxil olmazdan əvvəl müvəqqəti həbsinə kimi müxtəlif planlar daxildir. O da vurğulanır ki, bu işdə təkcə polis yox, digər güc strukturlarının və hakimiyyətin nəzarətində olan xüsusi cəza dəstələrinin nümayəndələri də iştirak edəcəklər. Müxalifət isə hakimiyyət tərəfindən yaradılacaq bütün maneələrə rəğmən etiraz mitinqlərinin keçiriləcəyini bildirib.

Beləliklə, müxalifət İrəvanda etirazlara başlayacağını bəyan etməklə bu yoldan dönməyəcəyini bildirir. Paşinyan isə ona qarşı yönəlmiş təhdidləri güc yolu ilə aradan qaldırmağı düşünür. Bu isə o deməkdir ki, Hayastanı qarşıdakı dövr ərzində qanlı günlər gözləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 21.02.2024-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

**İdman**

# "Böyük dəbilqə": Azərbaycan cüdoçuları qızıl medal qazanıblar







Azərbaycanın daha bir cüdoçusu Bakıda keçirilən "Böyük dəbilqə" turnirində qızıl medal qazanıb.

AZƏRTAC xəbər verir ki, 81 kiloqram çəki dərəcəsində çıxış edən Zelim Tçkayev finalda komanda yoldaşı Ömər Rəcəblini məğlub edərək, fəxri kürsünün birinci pilləsinə qalxıb.

Bundan öncə Hidayət Heydərov (73 kiloqram) da qızıl medalın sahibi olub. O, finalda tacikistanlı Abubakr Şerova qalib gələrək fəxri kürsünün birinci pilləsinə qalxıb.

Qeyd edək ki, turnirin ilk günündə Azərbaycan cüdoçularından Balabəy Ağayev (60 kiloqram) və Yaşar Nəcəfov (66 kiloqram) bürünc medal qazanıblar. Fevralın 18-dək davam edəcək turnirdə Azərbaycan 32 cüdoçu ilə təmsil olunur.

# Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz olacaq




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fevralın 18-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı, yarımadanın ayrı-ayrı yerlərində yağışın sulu qarla qarışıq yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-3°, gündüz 3-5° isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi normadan yüksək 770 millimetr civə sütunu olacaq. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən və Gədəbəy rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacağı ehtimal edilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 0-5° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman müşahidə edilə bilər. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 3°-dək isti, gündüz 3-6° isti olacağı gözlənilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4° şaxtadan 1°-dək isti, gündüz 2-6° isti, dağlarda gecə 2-7°, yüksək dağlıq ərazilərdə 8-13° şaxta, gündüz 0-5° şaxta olacaq.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 3°-dək isti, gündüz 3-7° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava bəzi yerlərdə arabir yağıntılı olacaq, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-7° isti, dağlarda gecə 0-4° şaxta, gündüz 0-3° isti olacağı ehtimalı var.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4050
Sifariş 344

Qiyməti 60 qəpik